**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Azərbaycanın Beynəlxalq Valyuta Fondu ilə əlaqələri və ölkə iqtisadiyyatında rolu (2012-2017)” mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**SƏMƏDOV TAHİR TALEH**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh**

**__________________**

**“___” ____________ 2019-cu il**

# “Azərbaycanın Beynəlxalq Valyuta Fondu ilə əlaqələri və ölkə iqtisadiyyatında rolu (2012-2017)” mövzusunda
# MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060401 Dünya İqtisadiyyatı
**İxtisaslaşma:** Beynəlxalq maliyyə və valyuta-kredit münasibətləri
**Qrup:** 870

**Magistrant**
**Səmədov Tahir Taleh**

_______________

**Elmi rəhbər**
**i.ü.f.d. Vəliyev Cəbrayıl Xəlil**

________________

**Proqram rəhbəri**
**b.m, i.ü.f.d. Nəcəfova Kəmalə Akif**

________________

**Kafedra müdiri**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi**

_________________

**BAKI – 2019**

## Elm andı

Mən, Səmədov Tahir Taleh oğlu and içirəm ki, “Azərbaycanın Beynəlxalq Valyuta Fondu ilə əlaqələri və ölkə iqtisadiyyatında rolu (2012-2017)” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**Abstract**

**Research topicality: International economic relations with international organizations are very important for improving of the countries' economies.. İn this research, relationships between the Republic of Azerbaijan and International Monetary Fund researched. Azerbaijan also get financial and technical assistance from International Monetary Fund. After being independent country, Azerbaijan needed to grow up fast and carry out important structural reforms to improve the economy of the country. In the research, it is analyzed about being member to the International Monetary Fund of Azerbaijan.**

**The objectives of the research: The objective of the research is to learn reasons of creation of İnternational Monetary Fund and analyze relations İMF and world countries and Republic of Azerbaijan.**

**Researching methods: In the researching of the theoretical part of the dissertation, local books and web resource of the International Monetary Fund used. However, in the researching of practical part of dissertation local books, web resources and reports of International Monetary Fund used.**

**Information base of the research: local books, web resources of International Monetary Fund, The Ministry of Finance, The Ministry of Economics, International Monetary Fund's reports about economic indicators of the member countries.**

**Research limitations:**

**Results of the research: İnternational Monetary Fund has an important role in the world. This financial organization helps world countries via financial and technical assistance and control. With analyzing relations with the Fund, I think that Azerbaijan should continue connection in all areas of the economy, both oil sector and non-oil sector.**

**Importance of the research: In the analyzing of the research many books and reports, statistical economic indicators were used. Therefore, information of this research may be used in next articles or dissertations.**

**Keywords: IMF, Azerbaijan, economy.**

# İXTİSARLAR və İŞARƏLƏR

**BVF** Beynəlxalq Valyuta Fondu

**SDR** Xüsusi Əvəzetmə Hüququ

**ABŞ** Amerika Birləşmiş Ştatları

**AR** Azərbaycan Respublikası

**MB** Mərkəzi Bank

## MÜNDƏRİCAT

| | | |
|---|---|---|
| | **GİRİŞ....................................................................................** | **4** |
| **I FƏSİL.** | **BEYNƏLXALQ VALYUTA FONDU BEYNƏLXALQ MALİYYƏ QURUMU KİMİ.......................................................** | **6** |
| 1.1. | Beynəlxalq Valyuta Fondunun yaranması səbəbləri və nəzəri əsasları..................................................................................... | 6 |
| 1.2. | Beynəlxalq Valyuta Fondunun strukturu, məqsəd və vəzifələri......... | 11 |
| **II FƏSİL.** | **BEYNƏLXALQ VALYUTA FONDUNUN FƏALİYYƏTİ VƏ DÜNYA İQTİSADİYYATINDA ROLU........................................** | **18** |
| 2.1. | Beynəlxalq Valyuta Fondunun fəaliyyət mexanizmi və funksiyaları.......................................................................... | 18 |
| 2.2. | Beynəlxalq Valyuta Fondunun dünya iqtisadiyyatında rolu............. | 27 |
| 2.3 | Beynəlxalq Valyuta Fonduna tənqidi yanaşmalar............................ | 35 |
| **III FƏSİL.** | **AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ VALYUTA FONDU İLƏ ƏLAQƏLƏRİ VƏ ÖLKƏ İQTİSADİYYATINDA ROLU....................................................** | **42** |
| 3.1. | Azərbaycanın xarici iqtisadi əlaqələri............................................. | 42 |
| 3.2. | Azərbaycan Respublikasının Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığı........................................................................... | 46 |
| 3.3. | Azərbaycan və Beynəlxalq Valyuta Fondu əməkdaşlığının inkişaf istiqamətləri.......................................................................... | 52 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR..........................................................** | **62** |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT..........................................** | **64** |
| | Cədvəllərin siyahısı........................................................................ | 66 |
| | Qrafiklərin siyahısı......................................................................... | 67 |

# GİRİŞ

**Mövzunun aktuallığı.** Dünyada baş vermiş müharibələrin və iqtisadi böhranların nəticəsində dünya ölkələrinin iqtisadiyyatına ağır zərbələr olur. Nəticədə ölkələrin iqtisadiyyatının inkişafında geriləmələr baş verir, tədiyə balansında kəsir yaranır. Bu problemləri aradan qaldırmaq üçün ölkələr müxtəlif iqtisadi proqramlar, struktur islahatlar həyata keçirdir. Dünya ölkələrinin böhran və müharibədən əziyyət çəkən iqtisadiyyatlarının inkişaf etdirilməsi məqsədilə beynəlxalq təşkilatlar yaradılıb. Bu təşkilatların arasında ən mühümlərindən biri BVF-dur. BVF dünya iqtisadiyyatında valyuta tənzimlənməsində aktiv iştirak edir, ölkələrin tədiyə balansında yaranmış kəsiri aradan qaldırmaq üçün həm maddi həm də texniki yardımlar edir. BVF dünya iqtisadiyyatında bu səbəblərdən mühüm yer tutur. Fond ilə ARnın da əlaqələri mövcuddur. Əsasən müstəqillik illlərindən sonra ölkə iqtisadiyyatını sürətlə inkişaf etdirmək məqsədilə fond ilə aktiv əlaqələr qurmuş Respublikamız 2005-ci ildən kredit almağı dayandırmışdır. Bundan sonrakı əməkdaşlıq texniki yardım və məsləhətləşmə çərçivəsində baş tutur. BVF-nun ölkə iqtisadiyyatının inkişafında və iqtisadi göstəricilərinin qiymətləndirilməsində mühüm yeri vardır. Bu səbəbdən bu mövzu üzrə araşdırma aktualdır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi.** Dissertasiya işinin birinci fəslində BVF-nun yaranmasını şərtləndirən amillər, fondun strukturu, yaranma məqsədləri və vəzifələri araşdırılmışdır. Araşdırma işinin ikinci fəslində fondun fəaliyyət mexanizmləri öyrənilmiş, fonda qarşı tənqidi fikirlər araşdırılmış, bu fikirlərin səbəbləri öyrənilmişdir. Üçüncü fəsildə isə BVF ilə AR-nın əlaqələri araşdırılmışdır.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi BVF-nun yaranması şərtlərini öyrənmək, onun dünya iqtisadiyyatında malik olduğu mövqe haqqında məlumatlanmaq və Azərbaycan ilə əlaqələrini araşdırmaqdır. Tədqiqatın məqsədinə müvafiq olaraq aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- BVF-nun yaranması səbəblərini araşdırmaq
- BVF-nun fəaliyyət mexanizmini öyrənmək

- AR ilə BVF-nun əməkdaşlığını və ölkə iqtisadiyyatındakı rolunu araşdırmaq

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın predmetini BVF-nun yaranmasının nəzəri əsasları, fondun strukturu və funksiyaları və onun dünya iqtisadiyyatında tutduğu mövqe təşkil edir. Təqdqiqat işinin obyektini isə fondun Azərbaycan ilə əlaqələri və bu əlaqələrin ölkə iqtisadiyyatının inkişafında önəmli yeri təşkil edir.

**Tədqiqat metodları.** Dissertasiya işinin araşdırılmasında müşahidə, riyazi-statistik metodlardan istifadə edilib. Xüsusi hissədə qrafik və diaqramlarla AR ilə BVF-nun qarşılıqlı əlaqələr və fondun ölkə iqtisadiyyatı üçün iqtisadi göstəriciləri analiz edilib.

**Tədqiqatın informasiya bazası.** Tədqiqatın nəzəri hissəsinin yazılmasında mövcud yerli və xarici ədəbiyyatlardan istifadə olunmuşdur. Praktiki hissədə isə yerli ədəbiyyat, internet resursları və BVF-nun iqtisadi göstəricilər üzrə hesabatlarından istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:**

**Nəticələrin elmi-praktiki əhəmiyyəti.** Dissertasiya işində BVF-nun yaranması prosesi, strukturu, fəaliyyəti, dünya iqtisadiyyatında tutduğu mövqe ətraflı şəkildə öyrənilmiş, Fonda qarşı olan tənqidlər araşdırılmış, Fond ilə Azərbaycan əlaqələri müstəqillik illərindən cari dövrə qədər analiz edilmişdir. Araşdırmadan müxtəlif seminarlarda, məruzələrdə ədəbiyyat mənbəyi kimi istifadə edilə bilər.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işinin strukturu xülasədən, girişdən, üç fəsildən, nəticə və təkliflərdən, istifadə olunmuş ədəbiyyat siyahısından, 13 cədvəl və 12 qrafikdən ibarət olub 67 səhifədir.

# I FƏSİL. BEYNƏLXALQ VALYUTA FONDU BEYNƏLXALQ MALİYYƏ QURUMU KİMİ

## 1.1. Beynəlxalq Valyuta Fondunun yaranması səbəbləri və nəzəri əsasları

BVF-nun yaradılmasına keçməzdən əvvəl dünya ölkələri arasında baş verən maliyyə münasibətlərinin tarixinə nəzər salmaq yaxşı olardı. Hələ qədim dövrlərdən, yəni məhsuldar qüvvələrin az inkişaf etdiyi vaxtlardan başlayaraq müxtəlif xalqlar arasında bir sıra əlaqələr formalaşmışdır. Qədim icmalar arasında baş verən hər hansı bir problemin tənzimlənməsi istiqamətində müxtəlif yığıncaqlar keçirilirdi. Bu proses getdikcə inkişaf etdi. Dövlətlər yarandıqdan sonra isə artıq dövlətlərarası münasibətlər yaranmağa başladı. Dövlətlərarası münasibətlərin yaranması isə dünya bazarının yaranmasını formalaşdırdı. Hər hansı bir məsələnin müzakirəsində dövlətlər arasında əvvəlcə müqavilələr, sazişlər imzalanır, daha sonra isə bu prosesi sistem halına salmaq üçün fəaliyyət mexanizmi işlənilirdi. Dövlətlər arasındakı münasibətlər genişlənib inkişaf etdikcə bəzi problemlər də ortaya çıxmağa başlayırdı. Bəzən bu problemləri qaydaya salmaq çətinləşirdi. Belə olan halda isə beynəlxalq təşkilatların yaranması artıq labüd hesab edilirdi.

Hələ XIX əsrin ortalarında ideyası I Aleksandra məxsus olan “müqəddəs ittifaq” yaradılmışdı. Bu ittifaqın ilkin üzvləri də Rusiya, Avstriya, Fransa olmuşdur. (Kərimov C., Orucov A., İsrafilov H., BİM. Beynəlxalq iqtisadi təşkilatlar, 2012, s. 10) Bundan sonra dünya ölkələri arasında müxtəlif qruplara aid olan müxtəlif beynəlxalq təşkilatlar yarandı. Artıq XX əsrin ortalarında belə təşkilatların sayı 400-ü keçmişdi. Adətən Beynəlxalq təşkilatların huquqi əsası bu təşkilatları təsis edən ölkələr tərəfindən müəyyən edilir.

Beynəlxalq iqtisadi təşkilatlar beynəlxalq təşkilatlar arasında xüsusi mövqeyə sahibdir. Hansı ki, bu tip təşkilatlar dünya ölkələri arasındakı münasibətlərdə xüsusi rola malikdirlər.

Beynəlxalq təşkilatların yaranmasının başlanğıcı kimi əsas olaraq dünyada baş verən müharibələrin ağır nəticələrini göstərmək olar. Belə ki, bu müharibələrin baş verməsindən sora dövlətlərin iqtisadiyyatının inkişafı əhəmiyyətli dərəcədə aşağı düşürdü. Bütün bu baş verənləri minimuma endirmək məqsədilə beynəlxalq

təşkilatların yaradılmasına başlanıldı. Dünya ölkələri arasında baş verən problemli məsələləri tənzimləmək məqsədilə 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatı yaradıldı.

Ümumi götürdükdə beynəlxalq təşkilatları aşağıdakı kimi təsnifləşdirmək olar:

1. Dövlət və qeyri-dövlət təşkilatları
2. Bütün dövlətlərin daxil ola biləcəyi beynəlxalq təşkilatlar
3. Universal təşkilatlar
4. İxtisaslaşmış
5. Ümumi səlahiyyətli
6. Xüsusi səlahiyyətli (Ələkbərov Ə.H., Vəliyev M.Ə.,Məmmədov S.M., Ramazanov M.K., "Beynəlxalq İqtisadi Təşkilatlar" 2010, s. 17)

Dünya ölkələri arasında olan münasibətlərdən valyuta-maliyyə münasibətlərini də qeyd etmək lazımdır. Valyuta münasibətləri dünya ölkələri arasında hesablaşma əməliyyatlarını göstərir. Qədim vaxtlardan etibarən ölkələr arasında valyuta münasibətlərində problemlər yaranırdı. Bu münasibətləri tənzimləmək üçün valyuta sisteminin yaradılmasına zərurət var idi.

Dünya valyuta sisteminin aşağıdakı mərhələlərini göstərmək olar:

1. Paris valyuta sistemi – (1816-1922)
2. Genoa valyuta sistemi – (1922-1944)
3. Bretton-Vuds valyuta sistemi – (1944-1976)
4. Yamayka valyuta sistemi – (1978-cari dövr) (Ələkbərov Ə.H., Vəliyev M.Ə.,Məmmədov S.M., Ramazanov M.K., "Beynəlxalq İqtisadi Təşkilatlar" 2010, s. 270)

Paris valyuta sisteminin yaranmasına əsas səbəb XIX əsrin əvvəllərində baş verən sənaye inqilabı və beynəlxalq ticarətin qızıl ilə həyata keçirilməsi olmuşdur. Bu valyuta sisteminin məhz Paris valyuta sistemi adlandırılmasının səbəbi isə bu sistemin fəaliyyətləri ilə bağlı müzakirələrin Paris şəhərində baş tutması olmuşdur. Məhz bu konfransda qızıl dünya pul vahidi kimi möhkəmlənir.

Qızıl standartı – bu o deməkdir ki, artıq ölkələrin rəsmi pul vahidinin dəyəri qızıl idi və  dövriyyədə qızıl sikkələr ümmumi ekvivalent idi. Qızıl pul vahidinin

üstün cəhəti ölkə daxilində və xaricində valyuta kursunun stabil saxlanılması idi. Qızıl standartının üstün cəhəti ilə yanaşı mənfi cəhəti də var idi. Belə ki, dünya iqtisadiyyatında olan pul kütləsi qızılın istehsalından asılı vəziyyətə düşmüşdü. Dövriyyədə qızılın artması da, azalması da problemə çevrilirdi. Belə ki, qızıl mədənlərinin artması ölkədə inflyasiyaya gətirib çıxarırdı. Qızıl istehsalı real əmtəə istehsalından az olduqda isə qiymətlər aşağı düşürdü.

Birinci dünya müharibəsi bitdikdən sonra ölkələr arası valyuta münasibətlərinin tənzimlənməsi məqsədilə artıq ikinci valyuta sistemi olan Genoa valyuta sistemi meydana çıxdı. Bu valyuta sisteminin əsas fəaliyyət prinsipləri İtaliyanın Genoa şəhərində baş tutan konfransda bəlirləndiyi üçün bu sistem Genoa valyuta sistemi adlandırıldı. Bu valyuta sistemində qərar qəbul edildi ki, qızılın valyuta kimi istifadəsi birdəfəlik dayandırılsın. İngilis funt sterlinqi ilə yanaşı ABŞ dollarının da beynəlxalq hesablaşma əməliyyatlarında istifadə olunması barədə razılıq əldə olundu. Bu valyuta sistemi həm də qızıl-deviz standartı da adlanırdı. Bu standartın geniş yayılması ilə ABŞ dolları və İngilis Funt sterlinqi güclənməyə başladı. Bir çox ölkələrin valyutalarının qızıla yox, devizə dəyişdirilməsi bu valyuta sisteminin əsas prinsiplərindən idi. Burada milli valyutaların qızıla dəyişdirilməsinin 2 forması meydana gəldi:

- I yol – birbaşa yol – Əsas valyutalar (ABŞ dolları və İngilis funt sterlinqi)
- II yol – dolayı yol – Digər valyutalar (Ələkbərov Ə.H., Vəliyev M.Ə.,Məmmədov S.M., Ramazanov M.K., "Beynəlxalq İqtisadi Təşkilatlar" 2010, s. 275)

1929-1933-cü illərdə baş vermiş böhranlar nəticəsində bu valyuta sistemi çökdü. Bundan bir müddət sonra, yəni 1944-cü ildə ABŞ-ın Bretton Vuds şəhərində yeni konfrans təşkil edildi. Bu konfransda artıq yeni sistem yaradıldı. Bu valyuta sistemi Bretton Vuds valyuta sistemi adlandı. Bretton Vuds valyuta sisteminin əsas mahiyyəti qızıla və ABŞ dolları ilə İngilis funt sterlinqinə əsaslanırdı. Sistemin mühüm cəhəti milli valyutaların kursunun dollarla müəyyən edilməsi idi. Bu səbəbdən dollar üstün səviyyəyə qalxdı və ABŞ-a iqtisadi üstünlük verildi. Lakin bu valyuta sistemi uzun sürmədi və tezliklə bu sistem də iflasa doğru getdi.

1978-cı ildən isə müasir valyuta sistemi olan Yamayka valyuta sistemi yarandı. Bu valyuta sisteminin əsası Yamaykanın Kingston şəhərində baş tutmuş konfransda qoyuldu. Bu konfransda 20 ölkənin nümayəndələri iştirak edirdi. Bu konfransda Yamayka sazişi imzalandı. Yamayka sazişinin mexanizmi isə aşağıdakı kimi idi:

1. Qızıl dollar standartı dağıldı
2. Valyutaların qızıla olan bağlılığı aradan qaldırıldı
3. Qızılın adi əmtəə kimi alınıb satılmağına qərar verildi
4. Dəyər vahidi olaraq SDR yarandı
5. Dollar artıq alman markası, isveçrə frankına bərabərləşdirildi
6. BVF və Dünya Bankı çərçivəsində sərbəst üzən valyuta rejimi yarandı
7. Valyuta tənzimlənməsi sferası genişləndi
8. Qapalı valyuta blokları yaradıldı (Ələkbərov Ə.H., Vəliyev M.Ə.,Məmmədov S.M., Ramazanov M.K., "Beynəlxalq İqtisadi Təşkilatlar" 2010, s. 284)

Daha öncə də qeyd edildiyi kimi 1929-1933-cü illərdə baş vermiş böhranlar dünya ölkələrinin iqtisadiyyatını sarsıtdı. Bu sarsma dünyanın müxtəlif ölkələrində bankların müflisləşməsi, zavodların bağlanması, torpağın qiymətinin azalması kimi özünü göstərmişdi. Bu vəziyyətdə dünya ölkələrində qiymətlər 48%, ticarətin həcmi 63% azalmışdır. Bu isə dünya ölkələrinin rəhbərlərini daha dərindən düşünməyə şövq edirdi. Beynəlxalq maliyyə institutlarının yaranması və beləliklə maliyyə sisteminə daha ciddi nəzarət edilməsi məsələsi gündəmdə idi. Bununla bağlı müxtəlif beynəlxalq konfranslar keçirilsə də ciddi təklif olmamışdı.

Nəhayət, 1940-cı ildə Amerika Birləşmiş Ştatlarından Xarri Dekster Uayt və Böyük Britaniyadan Con Maynard Keynes Beynəlxalq maliyyə institutunun yaradılması ilə bağlı təklif irəli sürdülər (Kərimov C., Orucov A., İsrafilov H., BİM. Beynəlxalq iqtisadi təşkilatlar, 2012, s. 187)

1944-cü ildə Amerika Birləşmiş Ştatları-nın Nyu Hempşir ştatında yerləşən Bretton Vuds şəhərində Beynəlxalq konfrans keçirildi. Konfrans tarixə Bretton Vuds konfransı adı ilə düşdü. Bu konfransda Birləşmiş Millətlər Təşkilatına daxil olan 44 dövlət iştirak etmişdi (Cədvəl 1)

**Cədvəl 1: Bretton Vuds konfransında nümayəndə heyyəti ilə iştirak edən ölkələr**

| | | |
|---|---|---|
| Avstraliya | El Salvador | Polşa |
| Belçika | İran | Cənubi Afrika Birliyi |
| Boliviya | İraq | Efiopiya |
| Boliviya | Liberiya | Fransa |
| Kanada | Lüksemburq | Yunanıstan |
| Çili | Meksika | Qvatemala |
| Çin | Niderland | Haiti |
| Kolumbiya | Yeni Zellandiya | Honduras |
| Kosta Rika | Nikaraqua | İslandiya |
| Kuba | Norveç | SSRİ |
| Çexoslavakiya | Panama | Böyük Britaniya |
| Dominikan Respublikası | Paraqvay | ABŞ |
| Ekvador | Peru | Uruqvay |
| Misir | Filippin | Venesuela |
| Yuqoslaviya | Hindistan | |

**Mənbə:** http://www.centerforfinancialstability.org/bw/Who_Was_at_Bretton_Woods.pdf

Bretton Vuds konfransında qəbul edilmiş qərara əsasən 2 ixtisaslaşmış təşkilat yaradıldı. Beynəlxalq Yenidənqurma və İnkişaf bankı və BVF. Bu təşkilatlar 1946-cı ildə fəaliyyətə başladılar. Hər iki təşkilat həm dünya iqtisadiyyatı səviyyəsində, həm də ayrı ayrı dünya ölkələri çərçivəsində fəaliyyət göstərirdilər. Qeyd edilən təşkilatlar Vaşinqtonda yerləşirdi. Əsas məqsədləri ikinci dünya müharibəsindən sonra iqtisadiyyatları pis vəziyyətə düşmüş dünya ölkələrinə yardım göstərmək idi.

BVF-nun əsas məqsədi ilkin olaraq valyuta kurslarını müəyyənləşdirmək idi.

BVF-nun nizamnaməsi ilk əvvəl aşağıdakı kimi idi:

- beynəlxalq valyuta əməkdaşlığına imkan yaratmaq;
- beynəlxalq ticarətin tarazlaşdırılmış artımını və inkişafını yüngülləşdirmək və bununla da məşğulluğun və real gəlirlərin yüksək səviyyəsinə, eləcə də istehsal ehtiyatlarının inkişafına nail olunması;
- sabit valyuta mübadiləsinə kömək etmək və rəqabətlə əlaqədar valyutaların qiymətdən düşməsinə yol verməmək;
- cari əməliyyatlar üzrə çoxtərəfli hesablaşmalar sisteminin yaradılması üçün əlverişli şərait yaradılması və dünya ticarətinin inkişafına maneçilik törədən valyuta mübadiləsi məhdudiyyətlərinin ləğv edilməsi;

- milli və beynəlxalq rifaha zərər gətirə biləcək tədbirlərə əl atmadan üzv-ölkələrə fondun ehtiyatları hesabına xarici tarazlığın pozulmasının düzəldilməsi üçün imkan yaradılması;

- üzv-ölkələrin tədiyə balansının müvazinətinin pozulmasının geniş miqyas almasını azaltmaq və məhdudlaşdırmaq (Ələkbərov Ə.H., Vəliyev M.Ə.,Məmmədov S.M., Ramazanov M.K., "Beynəlxalq İqtisadi Təşkilatlar" 2010, s. 357)

Dünya ölkələri arasında baş verən qlobal münasibətlər və dünya iqtisadiyyatının getdikcə formalaşması BVF-nun nizamnaməsinə yenidən baxılmanın zəruriliyini ortaya qoyurdu. Bununla əlaqədar olaraq nizamnaməyə 3 dəfə (1969,1978,1992) yenidən baxılmışdır.

1969-cu ildə Xüsusi Ehtiyat Fondları tənzimləmək məqsədilə SDR yaradıldı.

1978-cı ildə Yamayka Valyuta sisteminin yaradılması ilə əlaqədar

1992-ci ildə isə Fonda borcu olan ölkələrin səsvermə hüququnun müvəqqəti dayandırılması ilə əlaqədar olmuşdur. (Ələkbərov Ə.H., Vəliyev M.Ə.,Məmmədov S.M., Ramazanov M.K., "Beynəlxalq İqtisadi Təşkilatlar" 2010, s. 358)

Beynəlxalq likvidliyin artırılması ilə əlaqədar olaraq BVF müxtəlif konfranslar keçirirdi. Bu konfranslardan biri də 1967-ci ildə Braziliyanın Rio Da Janeyro şəhərində keçirildi. Bu konfransda ilk dəfə Xüsusi Əvəzetmə Hüququ-dan (SDR) istifadə edilməsi ilə bağlı razılığa gəlindi. Xüsusi Əvəzetmə Hüququ ilə bağlı bir neçə məsələ ortaya qoyuldu: Xüsusi Əvəzetmə Hüququna yanaşma digər valyutalara özəlliklə də dollara yanaşma kimi olmalıdır, Xüsusi Əvəzetmə Hüququnun kursu gündəlik olaraq digər dönərli valyutaların kursu ilə müəyyən olunsun. 1970-ci ildə Xüsusi Əvəzetmə Hüququnun ilk emissiyası baş tutdu.

1950-1960-cı illərdə BVF-na üzvlük prosesi getdikcə geniş vüsət aldı. Hətta Afrika ölkələri müstəqil olduqdan sonra təşkilata üzv olmağa başladılar. Hal-hazırda BVF-nun 189 üzvü var.

## 1.2. Beynəlxalq Valyuta Fondunun quruluşu, məqsəd və vəzifələri

BVF 189 ölkəni birləşdirən olduqca nüfuzlu beynəlxalq maliyyə qurumudur. İqtisadi artımın inkişafı, yüksək məşğulluğun təmin edilməsi, valyuta əlaqələrinin

dünya ölkələri arasında gücləndirilməsi, maliyyə stabilliyinin təmin edilməsi, maliyyə yardımının göstərilməsi məqsədilə yaradılmışdır.

BVF-nun strukturu aşağıdakı kimidir:

- İdarə Şurası
- Beynəlxalq Valyuta və Maliyyə komitəsi
- İnkişaf Komitəsi
- İcra Şurası
- İdarə edici direktor (Kərimov C., Orucov A., İsrafilov H., BİM. Beynəlxalq iqtisadi təşkilatlar, 2012, s. 188)

İdarə Şurası BVF-nun ən ali qərarverici orqanıdır. İdarə Şurasının tərkibində hər bir ölkə özünün bir əsas və bir köməkçi nümayəndəsi ilə iştirak edir. Əsas nümayəndə isə təmsil etdiyi ölkə tərəfindən seçilir və bu əsasən ya ölkənin maliyyə naziri ya da mərkəzi bankın rəhbəri olur. Adətən ildə bir dəfə şura üzvləri görüşürlər. Bu görüşün məqsədlərindən biri də İcra şurasına icraçı direktor seçməkdən ibarətdir. İdarə şurası kvota yüksəlməsini təsdiq edir, Xüsusi Əvəzetmə Hüququnun təyin edilməsi, yeni üzvlərin qəbul edilməsi, üzvlükdən çıxarılma və razılaşma məqaləsinə düzəlişlər etmək səlahiyyətinə malikdir.

Beynəlxalq Valyuta və Maliyyə Komitəsinə 24 üzv ölkə daxildir. Bu komitənin əsas məqsədi qlobal likvidliyin təmin olunması və inkişaf etməkdə olan ölkələrə resursların transfer olunmasından ibarətdir. Bu komitə ildə iki dəfə toplanıb iclas keçirdir. Komitə İdarə Şurasına daxildir və məsləhət xarakterli orqandır. Lakin birbaşa qərar qəbul edə bilmir. Beynəlxalq valyuta və maliyyə komitəsi birbaşa qərar qəbul edə bilməsə də mühüm funksiyaları özündə birləşdirir:

1. İcra komitəsinin fəaliyyətinə istiqamət verir
2. Valyuta sistemi üzrə strateji qərarlar hazırlayır ki, bundan da BVF və dünya ölkələri istifadə edir
3. BVF-nun yaranması ilə bağlı mövcud sazişə düzəlişlər edilməsi ilə bağlı öz təkliflərini edir.

İdarə Şurasının tərkibinə daxil olan komitələrdən biri də İnkişaf Komitəsidir. Bu komitə 25 üzv ölkədən ibarətdir. Qeyd edilən komitənin fəaliyyətinin məqsədi

isə inkişaf etmiş ölkələrə iqtisadi inkişafı təşviq etmək üçün kritik inkişaf məsələləri və maliyyə resursları barədə məsləhətlər verməkdən ibarətdir. Komitənin fəaliyyəti bununla kifayətlənmir. İnkişaf komitəsi həmçinin ticarət və ətraf mühit sahəsində də məsləhətlər verir. İdarə Şurası birbaşa idarəedici direktora hesabatlar verir.

İdarə şurası öz məsul olduğu vəzifələrin bir hissəsini İcra şurasına tapşırır. İcra Şurası 24 icraçı direktordan ibarətdir. Bu direktorların 7si Almaniya, Birləşmiş Krallıq, Rusiya Federasiyası, Çin, Fransa, ABŞ və Yaponiya ölkələrinə aiddir. Qeyd edilən bu ölkələr BVF-da ən çox kvotaya sahib olan ölkələrdir. Qalan 16 direktor 4-22 ölkədən ibarət olan seçki dairələrini təmsil edir. 22 ölkənin ən böyük seçki dairəsini təmsil edən İcraçı Direktor səslərin 1,55% -ni təşkil edir. Bu şura adətən həftədə bir neçə dəfə görüşür. Şura üzvləri və seçki dairələri hər 8 ildən bir yenidən tərtib edilir.

BVF-da səsvermə hüququ kvota sisteminə əsaslanır. BVF-da üzv ölkələrin fondun fəaliyyətinə təsir etmək qabiliyyəti onların kapitaldakı payına əsasən müəyyən olunur. Belə ki, hər bir üzv ölkə kapitalda malik olduqları paydan asılı olmayaraq 250 əsas səs və hər bir yüz min SDR-ə görə əlavə səsə malikdir.

BVF-nun müxtəlif strukturları vardır. Bu strukturlarda 133 ölkədən olmaqla 2500 nəfər çalışır. Fondun fəaliyyətində əsas məqsədlərdən biri də üzv ölkələrin iqtisadi inkişafını dəstəkləmək, bu inkişafın sürətləndirilməsi üçün tədbirlər proqramından ibarət təkliflər paketi hazırlayıb təqdim etməkdir. Dünya iqtisadiyyatında qeyri-bərabərlik baş verən kimi dərhal BVF-nun əhəmiyyəti artır.

BVF öz resurslarının çoxaldılması üçün başqa imkanlardan da istifadə edir: Beynəlxalq maliyyə bazarlarında əməliyyatlar, vaxtından əvvəl verilmiş kreditlər üzrə faiz ödənişləri, əsas borc məbləğinin geri qaytarılması və s.

BVF-un idarə strukturuna daxil olan direktorlardan biri də İdarəedici direktordur. BVF-na rəhbərliyi məhz idarəedici direktor edir və həmçinin bu direktor icraedici orqanın sədri vəzifəsini də icra edir. Baş direktoru icraedici orqan 5 il müddətinə seçir. Baş direktora onun birinci müavini və digər müavinlər kömək edir. Tarixə baxsaq görərik ki, BVF-un direktorları Avropalı olub. Cədvəl 2-də BVF-na yarandıqdan indiyə qədər rəhbərlik edən direktorların siyahısı göstərilmişdir.

**Cədvəl 2: 1946-cari dövr BVF-nun direktorlarının siyahısı**

| Ad Soyad | Tarix | Ölkə |
|---|---|---|
| Dr. Camille Gutt | 6 May 1946 – 5 May 1951 | Belçika |
| Ivar Rooth | 3 Avqust 1951 – 3 Oktyabr 1956 | İsveç |
| Per Jacobsson | 21 Noyabr 1956 – 5 May 1963 | İsveç |
| Pierre-Paul Schweitzer | 1 Sentyabr 1963 – 31 Avqust 1973 | Fransa |
| Dr. Johan Witteveen | 1 Sentyabr 1973 – 18 İyun 1978 | Niderland |
| Jacques de Larosière | 18 İyun 1978 – 15 Yanvar 1987 | Fransa |
| Dr. Michel Camdessus | 16 Yanvar 1987 – 14 Fevral 2000 | Fransa |
| Horst Köhler | 1 May 2000 – 4 Mart 2004 | Almaniya |
| Rodrigo Rato | 7 İyun 2004 – 31 Oktyabr 2007 | İspaniya |
| Dr. Dominique Strauss-Kahn | 1 Noyabr 2007 – 18 May 2011 | Fransa |
| Christine Lagarde | 5 İyul 2011 – cari dövr | Fransa |

**Mənbə:** https://www.imf.org/external/np/exr/chron/mds.asp

Üzv ölkələr hesabına həmin ölkələrin ödənişi BVF-un maliyyə vəsaitlərinin əsasını təşkil edir. Daha əvvəl üzv ölkələr öz ödənişlərinin bir hissəsini, daha doğru desək ¼-ni qızıl ilə, qalan hissəni isə adi veksel şəklində edirdilər. Lakin 1978-ci ildə fondun nizamnaməsinin dəyişilməsi ilə qızıl əsas paritetliyi itirdi və onun yerini xarici valyutalar tutdu.

**Cədvəl 3: BVF-da ən çox kvotaya sahib olan ölkələr**

| S/N | Üzv ölkə | Kvota (milyon SDR) | Ümumi kvota faizi (%) |
|---|---|---|---|
| 1 | ABŞ | 82994.20 | 17.46 |
| 2 | Yaponiya | 30820.50 | 6.48 |
| 3 | Çin | 30482.90 | 6.41 |
| 4 | Almaniya | 26634.40 | 5.60 |
| 5 | Fransa | 20155.10 | 4.24 |
| 6 | Birləşmiş Krallıq | 20155.10 | 4.24 |
| 7 | İtaliya | 15070.00 | 3.17 |
| 8 | Hindistan | 13114.40 | 2.76 |
| 9 | Rusiya Federasiyası | 12903.70 | 2.71 |
| 10 | Brazilya | 11042.00 | 2.32 |
| 11 | Kanada | 11023.90 | 2.32 |
| 12 | Səudiyyə Ərəbistanı | 9992.60 | 2.10 |
| 13 | İspaniya | 9535.50 | 2.01 |
| 14 | Meksika | 8912.70 | 1.87 |
| 15 | Niderland | 8736.50 | 1.84 |
| 16 | Cənubi Koreya | 8582.70 | 1.81 |
| 17 | Avstraliya | 6572.40 | 1.38 |

**Mənbə:** https://www.imf.org/external/np/sec/memdir/members.aspx

Ümumiyyətlə kvota-müəyyən xüsusiyyətlərə malikdir:

- Üzv dövlətlərin BVF-da malik olduğu kapitalın məbləği
- BVF-nun malik olduğu sərvətlərdən istifadə
- Həmin dövlətin Fondda malik olduğu səs

Kvota sisteminin təsirləri, yəni onun nə kimi əhəmiyyət kəsb etməyini bilmək olduqca vacibdir. Belə ki, BVF-nun kvota sistemi borcların resurs mənbəyini artırmaq üçün yaradılıb. Bu kvotalar hər biz üzv ölkənin qlobal iqtisadiyyatda özünün nisbi ölçüsünü göstərir. Bu sistem təsisçilərin idarə etdiyi şirkətlərdəki məntiqə daha yaxındır. Belə ki, BVF-da daha çox kvotaya malik olan ölkələr qaydaların hazırlanması və düzəlişlər edilməsi prosesində daha çox səs hüququna malikdir. Kvotalar normalda hər beş ildən bir yenidən nəzərdən keçirilir. Kvotanın nəzərə alınması bir neçə göstəricilər əsasında müəyyən olunur: Ümumi Milli Məhsul, qızıl ehtiyatları, valyuta ehtiyatları, ixracın həcmi, idxalın həcmi və digərləri.

BVF-nun demək olar ki, müxtəlif regionlar üzrə bölmələri vardır. BVF-nun Avropa ölkələri üzrə 2 bölməsi var. İnkişaf etmiş avropa ölkələri həmin bölmənin birincisini təşkil edir. İkinci bölmə isə 1991-ci ildə yaradılıb. Bu bölmənin yaradılması Mərkəzi və Şərqi Avropa ölkələrinin BVF-a üzv olması ilə əlaqədar olmuşdur.

BVF-un yaradılmasının məqsədləri aşağıdakılardır:

- Qlobal və eləcə də yerli məzmunda makroiqtisadi stabilliyin təmin edilməsi
- Beynəlxalq ticarətə yardım
- Tam məşğulluğun və davamlı iqtisadi artımın sürətləndirilməsi
- Yoxsulluğun azaldılması
- Dünya üzrə beynəlxalq ödəmələr sisteminin bərpa edilməsi
- Valyuta kurslarının tənzimlənməsi və valyuta məhdudiyyətlərinin aradan qaldırılması (Məmmədov Z.F. “Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi” 2012„ s. 170)

BVF-nun mövcud olduğu illərdə onun fəaliyyət miqyası genişlənərək funksiyalarının dəyişməsinə səbəb olmuşdur. Fond qlobal iqtisadi siyasətin

istiqamətləndirilməsində aktiv iştirak etmişdir. BVF-da iqtisadi siyasət ilə məşğul olan funksional şöbələr yenidən qurulmuşdur. Belə ki, valyuta münasibətləri bölməsi dəyişdiriləræk analitik bölməyə çevrildi. Analitik bölmə BVF-na üzv olan ölkələrin tətbiq etdiyi iqtisadi siyasətə nəzər yetirir. Fondun təşkilati quruluşunda regional bölmələr, yəni Afrika, Asiya və Sakit okean, Avropa, Orta Şərq və Qərb yarımkürəsi üzrə yarandı. BVF müstəqil və şəxsi ekspertiza xidmətinə və eləcə də digər xidmətlərə malikdir. Bu xidmətlərin yaradılmasına səbəb BVF-na həvalə edilmiş vəzifələri yerinə yetirmək olmuşdur.

BVF-nun əsas vəzifəsi olaraq onu qeyd etmək olar ki, Fond beynəlxalq maliyyə sisteminin sabitliyini qoruyur. BVF bu prosesi 3 yol ilə həyata keçirdir:

1. Fond qlobal iqtisadiyyatı və üzv ölkələrin iqtisadiyyatını izləyir
2. Tədiyyə balanslarında çətinlik olan ölkələrə borc verməklə yardım edir
3. Üzv ölkələrə praktiki yardım kimi məsləhətlər verir

İndi isə keçək Fondun qeyd edilən vəzifələrinin qısa izahına:

Belə ki, BVF beynəlxalq maliyyə sisteminə nəzarət etməklə yanaşı, həmçinin 189 üzv ölkənin maliyyə siyasətlərinə nəzarət edir. Bu prosesin bir hissəsi olaraq, BVF qlobal və ölkə üzrə ayrılıqda iqtisadi sabitliyin mümkün risklərini nəzarətdə saxlayır və həmçinin siyasi düzəlişlərə ehtiyac varsa bu prosesi həyata keçirdir. İldə bir dəfə olaraq BVF üzv ölkələrin iqtisadi vəziyyətini qiymətləndirməklə yanaşı həm də ölkə rəhbərləri ilə görüşüb məsləhətlər aparır.

BVF-nun digər vəzifəsi daha öncə də qeyd edildiyi kimi tədiyyə balanslarında çətinlik yaranmış ölkələrə yardım etməsidir. Bu yardımı Fond üzv ölkələrə borcların verilməsi ilə həyata keçirdir. Borcların verilməsi ilə həmin ölkələrdə yaranmış çətinliklər bərpa olunur. Belə ki, həmin ölkələr bu yardım vasitəsilə özlərinin beynəlxalq ehtiyatlarını yenidən bərpa edir, öz valyutalarının stabilliyini qoruyur, idxal ödənişlərini yenidən həyata keçirir. Bütün bunlarla yanaşı onlar həmçinin güclü iqtisadi inkişaf üçün gərəkli olan bütün şərtləri təmin etməyə qadir olurlar. BVF-nun həyata keçirdiyi kredit mexanizmləri barədə ikinci fəsildə daha detallı məlumat veriləcək.

BVF-nun başqa bir vəzifəsi isə üzv ölkələrə praktiki məsləhətlər verməkdir.

Bu prosesin məqsədi əsas olaraq üzv ölkələrin daxili iqtisadi və maliyyə cəhətdən inkişaf etməsidir. BVF bu istiqamətdə üzv ölkələrdə müxtəlif sahələrin inkişafı üzrə fərqli təlimatlar keçir. Bu proses həmin ölkələrin iqtisadi siyasətlərini və institutlarını modernləşdirir, iqtisadiyyatını gücləndirir, inkişafı sürətləndirir və s. Qeyd edildiyi kimi müxtəlif istiqamətlərdə praktiki məsləhətlər həyata keçirilir. Bunlara misal olaraq, vergi siyasəti, pul-kredit siyasəti, bank sisteminə nəzarət istiqaməti və həmçinin statistika sahəsini göstərmək olar.

20 ildən artıqdır ki, BVF üzv ölkələrin maliyyə sektorunun vəziyyətində yaranmış problemlərin həlli, qlobal çərçivədə maliyyə və iqtisadi böhranların ölkələrdə yaratdığı nəticələrin aradan qaldırılması istiqamətində öz səylərini göstərir. BVF-da bir sıra islahatlar da olmuşdur. Aparılan islahatlar əsasən kredit proqramlarının azaldılması, verilən kreditlərin geri alınma müddətinin azaldılması və s. yönündə olmuşdur.

BVF elə bir dövlətlər arası qurumdur ki, həm ölkələrə kredit verir, həm dünya valyuta sisteminin prinsiplərini inkişaf etdirir həm də ölkələr arasında beynəlxalq maliyyə sisteminin tənzimlənməsində aktiv iştirak edir.

BVF-nun məqsədlərini cəmləşdirsək belə bir nəticəyə gələ bilərik ki, fond dünya ölkələri arasında valyuta əməkdaşlığını inkişaf etdirir, ölkələrin tədiyyə balansında olan kəsirin aradan qaldırılmasında iştirak edir və valyuta məzənnələrinin stabilliyini qorumaq üçün üzv ölkələrə texniki yardım edir və məsləhətlər verir.

# II FƏSİL. BEYNƏLXALQ VALYUTA FONDUNUN FƏALİYYƏTİ VƏ DÜNYA İQTİSADİYYATINDA ROLU

## 2.1. Beynəlxalq Valyuta Fondunun fəaliyyət mexanizmi və funksiyaları

Bildiyimiz kimi Beynəlxalq Vayuta Fondunun yaradılmasını şərtləndirən əsas amillərdən biri ikinci dünya müharibəsindən sonra böyük ölçüdə çətinlik yaşayan və müharibənin acı nəticələrinin təsir etdiyi ölkələrə yardım etmək, onların iqtisadiyyatını dirçəltmək, valyuta stabilliyini bərqərar etmək olmuşdur. Bu istiqamətdə BVF çox işlər görüb. BVF-nun dünya ölkələrinin iqtisadiyyatının dirçəlməsi istiqamətində atdığı addımlar əsasən 3 istiqamətdə gedib. Bu istiqamətlər özündə real olaraq fondun funksiyalarını birləşdirir. BVF-nun funksiyalarını aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Nəzarət
2. Texniki yardım
3. Ölkələrin kreditləşdirilməsi (L. P. Borodulina, İ. A. Kudryaşeva, V. A. Yurqa ; rus dilindən tərc. Ə. Ə. Ələkbərov "Beynəlxalq iqtisadi təşkilatlar" Bakı 2008, s. 165)

Nəzarət funksiyası iqtisadi siyasət problemlərinin həll olunması məqsədilə tətbiq olunur. BVF-a üzv olan ölkələrin iqtisadiyyatının hansı vəziyyətdə olduğunu yoxlamaq və ona nəzarət etmək üçün ildə bir dəfə olmaqla həmin ölkələrdə olur və iqtisadiyyatın vəziyyətinin qiymətləndirilməsini həyata keçirdir. Bu qiymətləndirmə prosesi əsasən ölkə liderləri ilə məsləhət-məşvərət çərçivəsində baş verir. Bu məsləhət prosesində isə əsas müzakirə mövzusu valyutanın stabilliyinin qorunması və iqtisadi artıma təkan verəcək fərqli-fərqli proqramların tətbiq olunmasıdır. Bu müzakirə çərçivəsində BVF üzv ölkələrin valyuta kurslarını müəyyən edir. Nəzarətin də özünəməxsus məqsədləri vardır. Belə ki, nəzarətin sayəsində BVF ölkələrin ödəmə balansına nəzarət edir, makroiqtisadi uyğunsuzluqları aşkar edir.

BVF tərəfindən həyata keçirilən nəzarətin aşağıdakı formaları var:

1. Üzv ölkələrdə ikitərəfli məsləhətlərin keçirilməsi.
2. İcra Şurası tərəfindən çoxtərəfli müzakirələrin keçirilməsi. Bu müzakirələrdə əsas mövzu beynəlxalq iqtisadiyyatın gələcək dövr üçün proqnoz edilməsidir.

3. Dərinləşmiş nəzarət – Bu nəzarət forması üzv ölkələrin makroiqtisadi inkişafına zəmanət verir (L. P. Borodulina, İ. A. Kudryaşeva, V. A. Yurqa ; rus dilindən tərc. Ə. Ə. Ələkbərov "Beynəlxalq iqtisadi təşkilatlar" Bakı 2008, s. 167)

BVF-nun nəzarət funksiyalarının bir neçə istiqaməti mövcuddur: inflyasiya səviyyəsini aşağı həddə endirmək, valyuta sahəsində islahatlar və s.

BVF-nun digər bir funksiyası texniki yardımdır. Bu yardım BVF tərəfindən əvəzsiz olaraq keçirilir. Texniki yardım istiqamətləri bunlardır: vergi siyasəti, pul siyasəti, valyuta-maliyyə siyasəti və s. Texniki yardım olaraq BVF həmçinin milli statistika standartlarının inkişaf etdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmasını da həyata keçirdir. Valyuta münasibətlərinin tənzimlənməsi istiqamətində isə BVF Mərkəzi bankların fəaliyyətinə nəzər yetirməklə onların maliyyə sektorunun idarə edilməsində, valyuta əməliyyatlarının tənzimlənməsində və ölkənin maliyyə vəziyyətinin yaxşılaşdırılmasında texniki yardımını göstərir və valyuta əməliyyatlarını təmin edir.

BVF bu funksiyanı həyata keçirtmək üçün Vaşinqton, Vyana və Sinqapurda bölmələr yaradıb. Bu bölmələr fonda üzv olmaq istəyən dövlətlərdə peşəkar kadrların hazırlanmasını yerinə yetirir. Bu hazırlığın əsas mövzuları isə makroiqtisadi tənzimləmə, maliyyə sisteminin inkişaf etdirilməsi, vergi sisteminin təkmilləşdirilməsi, statistik məlumatların beynəlxalq standartlara uyğunlaşdırılmasını əhatə edir. Qeyd edilən treyninqlər əsasən ərəb, fransız, ispan və ingilis dilində keçirilir və bu təlimlər BVF-nun milli və regional mərkəzlərində aparılır. BVF-nun texniki köməyin keçirilmə vasitəsi olaraq üzv olan ölkələrə xüsusi mütəxəssis və nümayəndə göndərməyini də qeyd etmək yerinə düşər.

BVF-nun bəlkə də ən geniş yayılmış funksiyası ölkələrin kreditləşdirilməsi yolu ilə onların maliyyə vəziyyətinin yaxşılaşdırılmasıdır. BVF ilə maliyyə tranzaksiyalarının yerinə yetirilməsi üçün hər bir ölkə özünün maliyyə agentini və əmanətçisini təqdim etməlidir. Maliyyə agenti rolunda dövlət xəzinəsi, mərkəzi bank çıxış edə bilər. Depozitar rolunda isə mərkəzi banklar çıxış edir. Mərkəzi bank olmadığı təqdirdə isə uyğun institut bu rolu üstənməlidir.

BVF-nun verdiyi kredit növlərinin oxşar cəhətləri mövcuddur. Belə ki, verilən kreditin miqdarı ölkənin BVF-da olan kvotası ilə tənzimlənir. Bəzən üzv ölkə BVF-dan öz valyutası hesabına xarici valyuta alır.

BVF-dan borc alan ölkə əvvəlcə iqtisadi vəziyyətin həqiqətən pisləşdiyi və bu səbəbdən kreditə ehtiyacı olduğunu əks etdirən razılaşma sənədini təqdim edir və bu sənədi öz növbəsində İcra şurası təsdiq edir (L. P. Borodulina, İ. A. Kudryaşeva, V. A. Yurqa ; rus dilindən tərc. Ə. Ə. Ələkbərov "Beynəlxalq iqtisadi təşkilatlar" Bakı 2008, s. 171)

BVF-nun maliyyə yardımı məqsədilə verdiyi kreditlər ümumi olaraq cədvəl 4-də göstərilmişdir. Daha sonra bu kreditlərin hansı mexanizm vasitəsilə verilməsi barədə məlumat veriləcək.

**Cədvəl 4: BVF-nun tətbiq etdiyi kredit növləri**

| **Kredit** | **Anlamı** | **Şərt** |
|---|---|---|
| STF | Sistemli dəyişikliklərin maliyyələşdirilməsi mexanizmi | 5%, 10 il |
| Standby | Tədiyyə balansını dəstəkləmək və kəsiri maliyyələşdirmək | 5%, 5il |
| ESAF | Struktur islahatlarının geniş şəkildə maliyyələşdirilməsi | 0.5% 10 il |
| EFF | Geniş kreditləşdirmə mexanizmi | 4.2%, 10 il |
| CCFF | Kompensasiya maliyyələşdirmə mexanizmi | |
| PGRF | Yoxsulluğun azaldılması və iqtisadi artımın təmin olunması mexanizmi | 0.5%, 10 il<br>5.5 il güzəşt |

**Mənbə:** www.imf.org

BVF-dan borc alan ölkələrin sayı artdıqca kredit fondlarının sayı da artır. Belə ki, BVF borc alan ölkələrə maliyyə yardımını bu kredit fondlarının vasitəsilə verir.

BVF-nun verdiyi kreditlər arasında ən geniş yayılmışı "Stand-by" kreditləridir. Tədiyə balansında yaranmış kəsiri aradan qaldırmaq bu kredit növünün əsas təyinatıdır. Bundan başqa bu kredit vasitəsilə üzv ölkələrin makro iqtisadi proqramları kreditləşdirilir. Ölkələrin əldə etdiyi bu növ maliyyə yardımı tranşlar vasitəsilə əldə edilir. Hər bir tranş ölkə tərəfindən stabilləşdirici proqramların yerinə yetirilməsi şərti ilə ayrılır. BVF üzv ölkənin razılığı ilə qeyd olunan makro iqtisadi tədbirləri müəyyən edir: büdcədə yaranan kəsirin aradan qaldırılması, inflyasiya dərəcəsinin aşağı həddə çatdırılması, idxal rüsumlarının, kvotaların daha münasib

həddinin müəyyən edilməsi və s. Ölkə BVF ilə bağladığı müqavilənin şərtlərinə əməl etmədiyi təqdirdə növbəti tranşlar saxlanıla bilər.

Onu da qeyd etmək yerinə düşər ki, bu növ kredit ilk dəfə 1952-ci ildə istifadə olunub. Kreditləşmə müddətinə gəldikdə isə bu müddət 1 il-1 il yarımdır. Borcun ödənilməsi isə vaxt uzanması olmadığı halda 4 ildir.

BVF-nun verdiyi imtiyazsız maliyyə yardımlarından biri də geniş kreditləşmə mexanizmi çərçivəsində verilən genişləndirilmiş kredit sistemidir. İlk dəfə 1994-cü ildə yaradılıb. Stand-by kreditlərindən fərqli olaraq bu növ maliyyə yardımı tədiyyə balanslarında yaranan uzunmüddətli çətinlikləri həll etmək məqsədi daşıyır. Kreditin verilmə müddəti 3 ildir. Kreditin ödəmə öhdəliyinin maksimum 19 il olmasına baxmayaraq ödəmələr əsasən maksimum 7 il ərzində həyata keçirilir. Adətən ölkələr genişləndirilmiş kredit sistemindən o vaxt istifadə edir ki, onlar öz iqtisadiyyatlarının iqtisadi mexanizmlərini inkişaf etdirirlər. Bu iqtisadi mexanizmlərə vergi sektorunda islahatların aparılması, maliyyə sektorunda islahatların aparılması, dövlət şirkətlərinin özəlləşdirilməsi, əmək bazarının inkişaf etdirilməsi və s. aiddir.

**Qrafik 1: Standby və Genişləndirilmiş kreditlərin illər üzrə müqayisəsi (mlrd SDR)**




**Mənbə:** www.imf.org

Yuxarıdakı qrafikdə BVF-nun ən çox etdiyi maliyyə yardımlarının müəyyən dövr üçün göstəriciləri əks olunub. Cədvəldən də göründüyü kimi BVF ən çox standby kreditləri vasitəsi ilə dünya ölkələrinə yardım edərək onların iqtisadiyyatlarının dirçəlməsinə kömək edir.

Bu növ maliyyə yardımı almaq istəyən ölkələr BVF-na iqtisadi siyasətin məqsədinin qeyd edildiyi proqramı, bundan əlavə olaraq gələcək dövrlərdə görəcəyi işlər, təyin olunan hədəfə çatmaq üçün yerinə yetiriləcək tədbirlər planını təqdim etməlidir.

BVF ilk dəfə olaraq 1997-ci ildə Əlavə Ehtiyat Kreditlərini təqdim edib. Bu kreditlərin müddətinin qısa olmasına baxmayaraq məbləğ olaraq böyük həcmdə verilir. Bu növ kreditlərin məğzi ölkələrin mərkəzi bankının valyuta ehtiyatlarının artırılmasıdır. Əsas vəzifəsi tədiyə balansında kəsrlərin yaranmasına yol aça biləcək valyuta məzənnələrində baş verən qeyri stabilliyi aradan qaldırmaqdan ibarətdir. Bu kreditlərin geri ödənilmə vaxtı 2 il yarımdır.

Daha bir kredit növü kimi kompensasiya edici kreditləri göstərmək olar. Tətbiqi 1969-cu ildən başlayan kompensasiyaedici kreditlərdən əsasən xammal ixrac edən və həmçinin taxıl idxal edən ölkələr yararlanır. Birinci göstərilən halda ölkə necə çətinliyə düşür ona baxaq. Belə ki, ixrac edən ölkə ola bilər ki, bu ixracdan əldə etdiyi gəlir birdən birə azalmağa başlayır və bu azalmanın nəticəsində ölkə iqtisadi cəhətdən çətinliyə düşür. İkinci göstərilən hal, yəni idxal vaxtı ölkənin düşə biləcəyi çətin duruma baxaq. Belə ki, bu halda ola bilər ki, dünya səviyyəsində ilkin tələbat və istehlak mallarının qiymətində baş verən dəyişmələr nəticəsində idxal xərclərinin artması ola bilər. Standby kreditlərinin şərtləri kompensasiyaedici kredit şərtlərində eyni olaraq qalır. Yeganə fərqi kompensasiyaedici kreditdə əlavə faizlərin olmamasıdır. Bundan əlavə olaraq BVF bəzi xərclərin ödənilməsi üçün ölkələrdən 0.5 faiz xidmət haqqı tutur. Bu kimi xərclərə təşkilati xərcləri aid etmək olar.

BVF həm də dünya iqtisadiyyatında yoxsulluğa qarşı da mübarizə aparır. Bu məqsədlə BVF Yoxsulluğa qarşı mübarizə və iqtisadi artımın təminatı üzrə kreditlər təqdim edir. Bu kreditlər faiz dərəcələrinin kifayət qədər aşağı olması ilə seçilir. Belə ki, yoxsulluğa qarşı mübarizəyə aid kreditlərin illik faiz dərəcəsi adətən 0.5%-i ötüb keçmir. Borcun qaytarılma müddəti isə 10 ildir. Bu krediti əldə etmək üçün ölkələrin hazırladıqları proqramlar digər kreditlər üçün tələb olunan proqramlardan daha az ciddi xarakter daşıyır. Hətta burada inflyasiya səviyyəsi və dövlət borcunun

səviyyəsinin nəzərdə tutulan dərəcədə olması müəyyən olunmur. Bu növ kreditlər 1971-ci ilin əvvəllərindən verilməyə başladı. Həmin vaxtdan bu kreditlər Strukturun yaxşılaşdırılması kreditləri adlanırdı. Lakin 1999-cu ilin sonlarından bu kredit təminatı Yoxsulluğa qarşı mübarizə və iqtisadi artım krediti adlandı. Bu kreditin əsas məqsədi elə adından bəlli olur- belə ki, kreditin birbaşa təyinatı yoxsulluğu azaltmaqdan ibarətdir.

Aşağıdakı cədvəldə 2015-ci ildə yoxsulluğa qarşı mübarizə üzrə maliyyə yardımının verilməsi göstərilib:

**Cədvəl 5: 2015-ci ildə yoxsulluğa qarşı maliyyə yardımı almış ölkələr**

| Ölkə | Tarix | Məbləğ (milyon SDR ilə) |
|---|---|---|
| Qvineya Bisau | 10.07.2015 | 17.00 |
| Haiti | 18.05.2015 | 49.10 |
| Burkina Faso | 05.06.2015 | 24.10 |
| Niger | 30.11.2015 | 41.10 |
| Syerra lion | 16.11.2015 | 46.70 |
| Kenya | 14.03.2015 | 354.60 |
| Mozambik | 18.12.2015 | 204.50 |
| CAR | 14.09.2015 | 8.40 |
| Dominik | 28.10.2015 | 6.20 |
| Madaqaskar | 18.11.2015 | 30.60 |

**Mənbə:** www.imf.org

YMİA üzrə kreditlər əsasən YMİA xəzinəsi tərəfindən verilir. Adı çəkilən xəzinədarlığın da özünəməxsus işi vardır:

1) Mərkəzi banklar və dövlət institutlarından borc alaraq YMİA üzrə müraciət edən ölkələrə vermək
2) YMİA üzrə vəsait verənlərin təhlükəsizliyini qorumaq, bunun üçün də ehtiyat hesablar açmaq (L. P. Borodulina, İ. A. Kudryaşeva, V. A. Yurqa ; rus dilindən tərc. Ə. Ə. Ələkbərov "Beynəlxalq iqtisadi təşkilatlar" Bakı 2008, p. 175)

İkinci məsələdə qeyd edilən ehtiyat hesabların resursları qızıl satışı və investisiya gəlirlərindən ibarətdir. Bu resurslardan YMİA üçün borc verənlərin tamamının razılığı olmadan hər hansısa bir məqsəd üzrə istifadə edilə bilməz.

Kreditləşmə şərtləri və maliyyə resurslarının məqsədindən asılı olaraq kredit fondları və yaxud mexanizmlərinin də növləri var:

- Adi kreditləşmə mexanizmi

- Xüsusi kompensasiyaedici mexanizm
- Fövqəladə yardım mexanizmi
- Gəliri aşağı olan ölkələrə kömək mexanizmi

Adi mexanizmin də növləri var:

- Ehtiyat payı
- Kredit payı
- Ehtiyat kreditləri haqqında razılaşma
- Maliyyələşdirmənin genişləndirilməsi
- Əlavə maliyyələşdirmə (L. P. Borodulina, İ. A. Kudryaşeva, V. A. Yurqa ; rus dilindən tərc. Ə. Ə. Ələkbərov "Beynəlxalq iqtisadi təşkilatlar" Bakı 2008, s. 172)

BVF iqtisadi cəhətdən çətinlik yaşayan ölkələrə maliyyə yardımını qeyd edilən mexanizmlər çərçivəsində verir və hər mexanizmin özünün müəyyən limitləri vardır. Ölkələrin vəziyyətindən asılı olaraq həmin limitə yaxınlaşma miqyası da fərqlənir.

BVF dünya miqyasında makroiqtisadi sabitliyi bərqərar etmək, valyuta stabilliyini qorumaq məqsədilə etdiyi yardımları daha dəqiq desək verdiyi kreditləri yuxarıda qeyd edilən kredit mexanizmləri çərçivəsində verir. İndi isə bu mexanizmlər barədə daha detallı məlumat verək:

1. Adi kreditləşmə mexanizmi:

BVF-nun tətbiq etdiyi maliyyə yardımlarının verildiyi kreditləşmə mexanizmlərindən biri adi kreditləşmə mexanizmidir. Adi mexanizm özü də beş yerə bölünür:

a) Ehtiyat payı
b) Kredit payı
c) Ehtiyat kreditləri barədə razılaşma
d) Maliyyələşmənin genişləndirilməsi
e) Əlavə maliyyələşmə

Ehtiyat payı siyasəti o vaxt istifadə edilir ki, həmin ölkənin tədiyə balansında problem baş verir. Bu zaman həmin ölkənin tələbi əsasında dərhal kvotanın 25%i miqdarında maliyyə yardımı verilə bilir.

Yuxarıda qeyd edilən kreditin istifadə edilməsinin əsas vasitəsi məhz kredit payı siyasəti hesab edilir. BVF-nun İcraedici Şurası kredit payından istifadə edilməsi ilə bağlı razılıq verməlidir. Əks halda bundan istifadə edilə bilməz. Fondun bu çərçivədə yoxladığı məsələlərdən biri də kredit payı üçün nəzərdə tutulmuş alışın nizmnamə qaydalarına uyğun olub olmamasıdır. Maliyyə yardımı alan ölkə özünün "düşüncə məktubu"nda öhdəliyi qeyd olunur. Bu məktub daha sonra fonda göndərilir. Kredit payının alınması əsasən stendbay və genişləndirilmiş kreditlər haqqında razılaşmalar bağlanması vasitəsilə baş verir. (L. P. Borodulina, İ. A. Kudryaşeva, V. A. Yurqa ; rus dilindən tərc. Ə. Ə. Ələkbərov "Beynəlxalq iqtisadi təşkilatlar" Bakı 2008, s. 174)

Ehtiyat və genişləndirilmiş maliyyə yardımından istifadə edilmə halı açıq kredit xətti ilə eynilik təşkil edir. Faizlərə qənaət və valyuta vasitələrinin təzə ehtiyatlarının yaradılması qeyd edilən kreditlərin ilkin məqsədlərini təşkil edir. Real olaraq kreditləşmənin makroiqtisadi sabitləşdirici proqramı olaraq ehtiyat kreditləri mexanizmi çıxış edir.

Genişləndirilmiş çərçivədə xarici valyutada maliyyə yardımı alan ehtiyaclı ölkələrə maliyyə yardımı hissəli şəkildə müxtəlif sazişlər vasitəsilə müəyyən edilmiş vaxtlarda verilir. Bu prosesə BVF nəzarət edir. Fondun bu çərçivəli nəzarəti əsasən bu istiqamətlər üzrə həyata keçirilir: ölkənin pul-kredit siyasətinin maliyyələşməsi, dövlət borcları, xarici ticarət siyasəti və s. BVF həm də xarici valyuta ehtiyatlarında baş verən dəyişikliklərə nəzarət edir. Bu çərçivədəki kreditlər müəyyən olunmuş razılaşma daxilində verilir və razılaşmaya riayət edilmədikdə BVF kreditin verilməsini dayandırır.

Növbəti bəhs edəcəyimiz hissə əlavə maliyyələşmə ilə bağlıdır. Belə ki, əlavə maliyyələşmənin yaranması zərurətinə ehtiyac əsasən 1970-ci ilin sonlarında yaranmağa başladı. BVFna üzv olan ölkələrin ödəmə balanslarında tez-tez bərabərsizləşmələr baş verirdi. Artıq 1977-ci ildə bu problemləri aradan qaldırmaq üçün Əlavə maliyyələşdirmə sxemi yarandı. Bu kredit sistemi əsasən ödəmə balansında daimi kəsir yaranan və adi kredit limitini başa vurmuş ölkələr üçün

yaradıldı. Valyuta vəsaitlərinin sabitləşdirilməsi funksiyasını yerinə yetirən bu sistem özündə aşağıdakıları birləşdirir:

- Borc alan ölkələrin bu borcu almaq üçün fond tərəfindən təyin olunan şərtlər ilə razı olması
- Kreditlərin hissəli şəkildə təqdim olunması

Adi kreditləşmə mexanizmi çərçivəsində verilən kreditlərdə istifadə olunan resurslar əsasən müxtəlif ölkələrə məxsus olur. Bununla BVF bir növ vasitəçilik rolunu həyata keçirdir. Belə ki, Fond xüsusi olan vəsaitləri yığır, yəni nisbətən maddi vəziyyəti yaxşı olan ölkələrdən vəsaiti yığaraq ehtiyacı olan ölkələrə verir.

Adi kreditləşmə mexanizmindən başqa Fond həmçinin xüsusi kompensasiyaedici kreditləşmə mexanizmindən də istifadə edir. Bu mexanizm daimi kreditləşmə mexanizmi də adlanır. Xüsusi kompensasiyaedici kreditləşmə sisteminin tətbiqi 1963-cü ildə reallaşdı. Bu sistem də ödəmə balansındakı kəsiri aradan qaldırmaq üçün istifadə olunur, lakin əsasən ixracdan gəirin azalması nəticəsində ödəmə balanslarında yaranan kəsirin aradan qaldırılmasına yönəlib. Daha sonra isə BVF kompensasiyaedici ödənişləri həyata keçirməsinin digər səbəbləri də yaranmağa başladı. Bunlara misal olaraq idxal olunan dənli bitkilərin qiymətlərindəki artım, neft və qızıl məhsullarındakı qiymətin kəskin artması, xarici faktorlardan yaranan hadisələrin (təbii fəlakət, dünya qiymət səviyyəsinin azalması və s.) baş verməsi və s. göstərmək olar.

Kreditləşmə mexanizmlərindən bir növü də fövqəladə yardım mexanizmidir. Bu növ maliyyə yardımından adından da göründüyü kimi təbii fəlakətlərdən dolayı baş vermiş zərərlər üzündən ödəmə balanslarında yaranmış kəsiri aradan qaldırmaq üçün istifadə edilir. BVF-nun 1995-ci ildə qəbul etdiyi qərara əsasən müharibələrdən əziyyət çəkən ölkələrə fövqəladə yardım fondundan vəsait verilməsi planlaşdırıldı. Qeyd edilən səbəbdən dolayı ilk maliyyə yardımını 1997-98-ci illərdə Tacikistan, Albaniya və Ruanda dövlətləri aldı.Yardımın ümumi məbləği isə 30 milyard SDR idi. Bir də təcili maliyyələşmə mexanizmi də vardır ki, bu sistem isə BVF-nun qaçılması gərəkən təxirəsalınmaz hal baş verərkən tətbiq edilir. Bu mexanizm ilk dəfə 1997-ci ildə istifadə edildi və ilk istifadəçisi də Filippin ölkəsi oldu.

Bu mexanizmdən Filippindən başqa digər dövlətlər də istifadə edib. Bunlara misal olaraq Tayland, Rusiya,Koreya və İndoneziya dövlətlərini göstərmək olar.

## 2.2. Beynəlxalq Valyuta Fondunun dünya iqtisadiyyatında rolu

Əvvəlki fəsildə də qeyd edildiyi kimi BVF-nun yaranmasını şərtləndirən əsas amillərdən biri müharibələrdən əziyyət çəkən ölkələrə yardım etmək olmuşdur. Ümumiyyətlə götürsək, BVF-nun məqsədləri dünya iqtisadiyyatında makroiqtisadi problemləri, valyuta qeyri-stabilliyini bərqərar etməkdir. Bu məqsədlə isə BVF üzv ölkələrə maddi yardım olan kreditlər verir, məsləhət xidmətləri göstərir, onların iqtisadiyyatlarına nəzarət funksiyalarını yerinə yetirir.

Bildiyimiz kimi BVF Dünya Bankı qrupuna daxildir. Dünya bankı uzunmüddətli kreditlər verməsinə baxmayaraq BVF nisbətən daha qısamüddətli kreditlər verir və bu kreditlər əsasən makroiqtisadi məsələlərin həll edilməsi istiqamətində həyata keçirilir. Dünya bankı ancaq aşağı gəlirli ölkələrə kredit verməsinə baxmayaraq, BVF qısa müddət ərzində borclarını ödəmək üçün valyuta çatışmazlığından əziyyət çəkən istənilən üzv ölkəyə maliyyə yardımı edir.

BVF dünya ölkələrinin iqtisadiyyatının dirçəlməsi yönündə həyata keçirdiyi funksiyalardan biri də nəzarətdir ki, bu da özündə ölkə iqtisadiyyatının hərtərəfli təhlilini birləşdirir. Bu nəzarət isə müxtəlif istiqamətlərdə həyata keçirilir:

Bu istiqamətlərdən biri ikitərəfli nəzarətdir. İkitərəfli nəzarət mexanizminin mahiyyəti ondan ibarətdir ki, fondun direktorluğu hər bir üzv ölkə ilə iqtisadiyyat və maliyyə yönümündə məsləhət-məşvərət edir, bu isə fondun əməkdaşlarının hesabatlarına əsaslanır. Direktorluğa bu səlahiyyət isə nizamnamənin dördüncü bəndinə əsasən təyin olunub. İkitərəfli nəzarətin həyata keçirilməsinin köməyi ondan ibarət olur ki, bunun sayəsində BVF iqtisadi və maliyyə sahəsində həmin ölkələrin zəif tərəflərini aşkara çıxarır və bu istiqamətlərin daha da gücləndirilməsi üçün öz məsləhətlərini verir. Bu nəzarəti yerinə yetirmək məqsədilə BVF həmin ölkəyə öz missiya komandasını göndərir. Bu missiya həmin ölkənin mərkəzi bankının nümayəndələri tərəfindən qarşılandıqdan sonra ölkənin iqtisadi və maliyyə istiqaməti üzrə zəruri olan məlumatları toplayaraq işinə başlayır. Sonda isə missiya

gördüyü işin nəticəsi olaraq memorandum hazırlayır. Təhlil zamanı aşkar olunmuş zəif tərəflər, qüsurlar və bunların düzəldilməsi üçün hazırlanan təkliflər bu sənəddə öz əksini tapır. Bu sənəd həmin ölkədə qalır. Daha sonra isə missiya geriyə, yəni qərargaha qayıdaraq gördüyü işlər barədə hesabat hazırlayır. Hesabat hazırlandıqdan sonra Direktorluğa göndərilərək orada müzakirə olunur.

BVF-nun nəzarət mexanimzlərindən biri də regional nəzarətdir. Burada valyuta münasibətlərinə mexanizmin adından da göründüyü kimi regional səviyyədə baxılır. Regional nəzarət zamanı Fond əsasən nüfuzlu regional institutlarla birgə əməkdaşlıq edir. Belə institutlara Avropa İttifaqı, Avropa Mərkəzi bankı, Karib valyuta birliyi və s. göstərmək olar.

Digər nəzarət isə qlobal nəzarətdir ki, bu nəzarət vasitəsilə dünya iqtisadiyyatı üzrə maliyyə bazarlarının inkişaf istiqamətləri nəzərdən keçirilir. Bu nəzarət əsasən fond əməkdaşları tərəfindən hazırlanan və ildə iki dəfə nəşr edilən dünya maliyyə sabitliyi haqqında hesabata əsaslanır. Digər hesabat isə dünya iqtisadiyyatının inkişafı haqqında hesabatdır ki bu da ildə bir dəfə nəşr olunur. Bu hesabat dünya ölkələrinin hərtərəfli inkişaf parametrlərinin təhlilini özündə birləşdirir.

Qlobal nəzarət dünyada baş verə biləcək maliyyə və iqtisadi böhranların qarşısını almaq üçün önəmli vasitədir. Nəzarətin gücləndirilməsi məqsədilə fondun həyata keçirdiyi tədbirlər təşkilati islahat və valyuta siyasəti keçirsinlər deyə ölkələri bir növ həvəsləndirməyə yönəldilmişdir. Bu tədbirlərin nəticəsində hər ölkə öz növbəsində baş verə biləcək böhranın qarşısını almaq üçün hazırlıqlı olur ki, bu da öz növbəsində dünya maliyyə sisteminin sabitliyini və stabilliyini qoruyur.

Dünya valyuta sisteminin gücləndirilməsi istiqamətində BVF 2000-ci illərin əvvəllərində artıq iki proqram, irəli sürdü. Belə ki, bu proqramların birincisi standartlaşma və kodekslərə aiddir. BVF bu kodekslərin ölkələr tərəfindən nə dərəcədə yerinə yetirilməsini izləyir və onlara qiymət verir. Bu standartlaşma və kodekslər öz növbəsində beynəlxalq iqtisadiyyatda sağlam mühitin yaradılmasını təmin edir. Dünya ölkələrinin bu standartlara və kodekslərə nə dərəcədə əməl etdiyinə nəzarət edən BVF yekun olaraq standartların gözlənilməsi haqqında hesabat

hazırlayır. Bu hesabat isə əsasən üç təbəqəni əhatə edir: şəffaflıq, maliyyə nəzarəti və bazarın bütövlüyü:

Şəffaflıq - əsasən qərar qəbulu üzrə şəffaflıq başa düşülür. Əsasən fiskal və maliyyə siyasəti üzrə şəffaflığa önəm verilir. Bunun sayəsində isə investorlar obyektiv rəqəmlərə malik olduğuna görə kapital qoyuluşu məsələsində daha ehtiyatlı davranacaqlar. Burada əsas tənzimləyici alət rolunda BVF-nun kodeksləri çıxış edir.

Maliyyə nəzarəti – Burada əsas yeri maliyyə standartları tutur. Bu standartlar dünya ölkələrinin bank və maliyyə nəzarəti haqqında hesabat hazırlamalarını, qiymətli kağızlar bazarının tənzimlənməsi, sığorta nəzarəti və s. əhatə edir.

Bazarın bütövlüyü – Burada da əsas yeri korporativ standartlar tutur. Qeyd edilən standartlar dünya ölkələri üzrə korporativ idarəetmənin dəyərləndirilməsini, mühasibat uçotunu, kreditorların hüquqlarının müdafiəsini əhatə edir.

Dünya valyuta sisteminin gücləndirilməsi istiqamətində 2000-ci illərin əvvəlində BVF tərəfindən təklif olunan ikinci proqram isə maliyyə bölməsinin qiymətləndirilməsidir. Bu proqram ölkələrin maliyyə sistemləri üzərində nəzarətin əsas vasitəsidir. Bu proqram üzv ölkələrin sorğusu əsasında Fond tərəfində həyata keçirilir. Maliyyə proqramının qiymətləndirilməsi proqramı bütövlükdə ölkənin maliyyə sistemini özündə birləşdirir ki, bura da qiymətli kağızlar, sığorta şirkətləri, pul bazarı və s. daxildir. Bu araşdırmaların və yoxlamaların nəticəsi olaraq yekunda BVF Maliyyə bölməsinin sabitliyinin qiymətləndirilməsi hesabatını dərc etdirir.

BVF-nun dünya iqtisadiyyatının inkişafı yönündə apardığı proqramlardan biri də çirkli pulların yuyulması və terrorçuluğa qarşı mübarizə proqramıdır. Cinayətkar fəaliyyətdən əldə olunan gəlirlərin ortaya çıxarılması məqsədilə BVF Valyuta tənzimlənməsi haqqında qanuna dəyişikliklər etdi.

BVF dünya iqtisadiyyatında çətinlik çəkən ölkələrə yardım etməklə dünya iqtisadiyyatının sabit şəkildə inkişaf edərək güclənməsinə öz tövhələrini verir. Belə ki, 1980-ci ildə Latın Amerikası ölkələrinin iqtisadiyyatları borc böhranından ciddi şəkildə əziyyət çəkirdi. Bu çətinliyi aradan qaldırmaq üçün BVF region dövlətlərin bank idarələri və hakimiyyət orqanları ilə qarşılıqlı əməkdaşlıq şəraitində çalışaraq onları vəziyyətdən çıxarmışdı. Belə ki, fond həmin ölkələrə sabitləşdiri proqramlar

hazırlamaqda kömək etmiş və maliyyə paketlərini təşkil edərək həmin borclu ölkələri düşdükləri çətin vəziyyətdən xilas edə bilmişdir.

1990-cı illərin əvvəllərindən etibarən isə BVF Rusiya və digər post sovet ölkələri də daxil olmaqla Mərkəzi və Şərqi Avropa ölkələrinə bazar iqtisadiyyatına keçid ilə əlaqədar bir sıra yardımlar etməkdədir. Fondun bu ölkələrər yardım göstərməsinin əsasında duran məsələlərdən biri bazar iqtisadiyyatı üçün lazım olan hüquqi əsasın yaradılmasıdır.

Bildiyimiz kimi maliyyə böhranı Şimali Amerika materiki ölkələrindən də yan keçmədi. Belə ki, Meksika bu böhrana 1995-ci ildə yaxalandı. Bunun nəticəsində də təbii olaraq ölkədən kapital axını sürətli şəkildə baş verdi. Bunun qarşısını tez bir zamanda almaq məqsədilə Meksika hökuməti BVF ilə əməkdaşlıq edərək iqtisadiyyatın sabitləşdirilməsi istiqamətində kəskin islahatlar həyata keçirməyə başladı ki, bunun da nəticəsi müvəffəqiyyətli oldu. BVF öz növbəsində bu proqrama kömək məqsədilə 17 milyard 800 milyon dollar həcmində maliyyə yardımını təsdiqlədi.

Dünya iqtisadiyyatında baş verən böhran 1998-ci illərdə Asiya qitəsi ölkələrinin iqtisadiyyatlarına təsir etdi. Əsasən Koreya, İndoneziya və Tailand bu ölkələr içərisində fərqlənirdi. BVF bu ölkələrin iqtisadiyyatlarında struktur islahatların keçirilməsi istiqamətində bu ölkələrə ümumilikdə 30 milyarddan çox dollar maliyyə yardımı etmişdir. (Məmmədov Z.F. "Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi" 2012,, s. 221)

BVF-nun dünya iqtisadiyyatındakı rolunu təhlil edərkən Fondun dünya ölkələri ilə əlaqələrinə də diqqət etmək lazımdır. Dissertasiya işinin bu bölməsində BVF ilə dünyanın bir neçə ölkəsinin qarşılıqlı əlaqələrinə diqqət edəcəyik.

BVF bir çox çətin vəziyyətdə olan ölkələrə yardım edir. Bu tip ölkələrdən biri də Vietnamdır. Hələ 1980-ci illərin əvvəlləri Vietnam üçün ağır dövr idi. Cənubi Asiya ölkəsi olan Vietnam on illiklərlə davam edən müharibə sonrası yenicə özünə gəlirdi. İnflyasiya səviyyəsi 400%-i keçmişdi. Bu səbəbdən ölkə həmin illər mütləq şəkildə xarici köməkdən asılı vəziyyətdə qalmışdı. 1986-cı ildə Doi Moi adlanan iqtisadi islahatın nəticəsində artıq hər şey yaxşılığa doğru çevrildi. Özəl sektorlar

inkişaf etdi və ölkəyə xarici investisiya qoyuluşları başladı və beləliklə ölkə iqtisadiyyatı qlobal iqtisadiyyata daxil oldu (www.imf.org , 2019)

İqtisadiyyatın güclənməsi sayəsində yoxsulluğun həcmi 60%-dən 14%-ə endi. İqtisadiyyatın gücləndirilməsi istiqamətində ölkə Asiya İnkişaf Bankı, Dünya Bankı və BVFndan həm maliyyə həm də texniki yardım aldı.

BVF-nun məsləhətçilərindən ibarət qrupu Vietnama idarəetmə, vergi siyasəti, mərkəzi bankçılıq və statistik göstəricilərin əldə edilməsi sahəsində məsləhət verərək bu sahələrin inkişaf etməsində öz səylərini göstərmişlər. BVF-nun Cənubi Asiya ölkəsi olan Vietnama köməyi bir də kredit faizlərinin artırılması istiqamətində olmuşdur ki, bu da xarici investisiyanın ölkəyə cəlb edilməsini artırmışdı. Vietnam İqtisadi İdarəetmə mərkəzinin baş eksperti Vo Tri Thanh da müsahibəsində bildirir ki, BVF ilə əməkdaşlıq etmək iqtisadi islahatın keçirilməsi istiqamətində çox önəmli və faydalıdır (www.imf.org , 2019)

Vietnam iqtisadiyyatı ağır olan vaxt qarşıya qoyulan məqsədlərdən birincisi iqtisadiyyatı stabilləşdirmək idi. İqtisadiyyatın stabilləşdirilməsi ilə yanaşı həmçinin faiz dərəcələrinin artırılması, dövlət müəssisələrinə subsidiyaların verilməsi, valyutanın möhləmləndirilməsi məslələri də gündəmdə idi. Qeyd edilən islahatların həyata keçirilməsindən sonra yuxarıda qeyd etdiyimiz inflyasiya səviyyəsi artıq illik 8%-ə endirildi.

Vietnam ilə BVF arasında iqlim dəyişikliyi ilə əlaqədar inkişaf proqramı layihəsi də baş tutmuşdur. Bildiyimiz kimi Vietnam təbii fəlakətlərdən əziyyət çəkən ölkələr sırasındadır. Bu proqram vasitəsilə BVF iqlim dəyişiklikləri sayəsində baş verən təbii fəlakətdən əziyyət çəkən Vietnama bu sahədə instutsional siyasətin gücləndirilməsinə yardımçı olur.

BVF dünya ölkələri üzrə fəaliyyətini genişləndirmək məqsədilə 1987-ci ildə özünün genişləndirilmiş fondunu yaratdı. Bu fondun da yaradılmasının əsas məqsədi inkişaf etməkdə olan ölkələrə daha güzəştli şərtlər ilə kredit verərək onların iqtisadiyyatlarını dirçəltməkdən ibarətdir. Təxminən 9-10 il sonra Fond daha bir proqram hazırladı. Bu proqramdan isə böyük həcmdə borcu olan yoxsul ölkələr

yararlandı. Belə ki, bu tip ölkələrdə fondun maliyyə yardımından istifadə etmək imkanı yarandı.

**Qrafik 2: Regionlar üzrə texniki yardım (əhali/illər)**




**Mənbə:** www.imf.org

BVF daha əvvəldə də qeyd etdiyimiz kimi dünya iqtisadiyyatının dirçəlməsi və gücləndirilməsi məqsədilə texniki yardımlar həyata keçirdir. Texniki yardım proqramlarını isə BVF bu institutlar vasitəsilə həyata keçirdir:

Texniki Yardım Katibliyi, Valyuta və Mübadilə Əməliyyatları Departamenti və BVF-nun İnstitutu.

Qrafik 2-dən də göründüyü kimi BVF ən çox Afrika ölkələrinə texniki yardımları həyata keçirdir. Bildimiz kimi də ən çox yardıma ehtiyacı olan ölkələr də həmin qitədə yerləşən ölkələrdir. Mövcud iqtisadi vəziyyəti qiymətləndirsək görərik ki, bəli həqiqətən bu yardımların həmin qitə ölkələrinə çoxluğu da normal hal kimi qiymətləndirmək olar.

BVF ildə 2 dəfə olmaqla Dünya iqtisadiyyatının perspektivləri mövzusunda icmal nəşr etdirir. Dünya iqtisadiyyatında BVF öz fəaliyyətinin şəffaflığını artırmaq üçün bir sıra addımlar atır. Bu da dünya ölkələri iqtisadiyyatlarında stabil maliyyə sisteminin inkişafına müsbət təsir göstərir.

Qrafik 3-dən də göründüyü kimi BVF ən çox fiskal və monetar siyasət istiqamətində dünya ölkələrinə texniki yardımlar göstərir.

**Qrafik 3: BVF-nun müxtəlif illərdə sahələr üzrə texniki yardım göstəriciləri**




**Mənbə:** www.imf.org

BVF dünya ölkələrinin iqtisadiyyatlarını gücləndirmək məqsədilə maliyyə yardımları edir ki, bunu da üç vasitə ilə edir. Birinci yol budur ki, Fond tərəfindən üzv ölkələrə kreditlər verilir, bu maliyyə yardımının mənbəyi isə üzv ölkələrin fonda verdiyi üzvlük haqqlarından yaranır. Bu maliyyə yardımının verilməsində əsas məqsəd ölkələrin tədiyə balanslarındakı pozuntunu aradan qaldırmaqdı. İkinci yola konsessiya maliyyələşmələri daxildir. Konsessiya maliyyələşməsi dedikdə, yoxsul ölkələrə verilən mümkün qədər aşağı faizli kreditlər başa düşülür ki, bu növ kreditlərin də əsas məqsədi yoxsulluğun azaldılması, iqtisadiyyatlarının güclənməsi və inkişafdır. Üçüncü yola isə xüsusi borclanma hüquqları aiddir. Bu isə ilk dəfə 1969-cu ildə yaradılıb. BVF-nun yaratdığı SDR beynəlxalq aktiv statusunu daşımaqla bərabər həm də üzv ölkələr arasında hesablaşma vahidi rolunu oynayır.

BVF dünya ölkələri üçün tədris proqramları hazırlayır və dünyanın müxtəlif ölkələrində bu proqramlar həyata keçirilir. BVF-nun tətbiq etdiyi tədris proqramlarından Çində və Brazilyada istifadə edilmişdir. Çin ilə BVF arasında dövlət rəsmi tədris təlimi keçirilib, Braziliya və BVF arasında isə ölkədə regional tədris mərkəzinin açılışı ilə bağlı razılaşma baş vermişdir.

Daha əvvəl də qeyd etdiyimiz kimi BVF dünya ölkələrinin iqtisadiyyatının gücləndirilməsi istiqamətində onlara texniki yardımlar da edir. Texniki yardımın məqsədi maliyyə böhranından əziyyət çəkən ölkələrin iqtisadiyyatının makroqtisadi stabilliyini qorumaq və inkişaf etdirməkdən ibarətdir. Bu tip yardım BVF-nun öz büdcəsindən verilməklə yanaşı həm də donor dövlət və təşkilatların hesabına maliyyələşdirilir.

Yaponiya 2001-ci ildə ən böyük paya sahib olan donor olmuşdur ki, bu da ümumi maliyyə həcminin 23%-ni təşkil etmişdi.

**Cədvəl 6: BVF-dan yoxsulluğun azaldılması üzrə kredit alma hüququna malik ölkələr**

| | | |
|---|---|---|
| Benin | Əfqanıstan | Mavritaniya |
| Bolivia | Qambiya | Mozambik |
| Burkina Faso | Qana | Nikaraqua |
| Burundi | Qvineya | Niger |
| Kamerun | Qvineya Bisau | Ruanda |
| CAR | Qayana | San Tom Prinsip |
| Çad | Haiti | Seneqal |
| Komor | Honduras | Syerra Lion |
| Konqo Respublikası | Liberiya | Tanzaniya |
| Konqo Demokratik Respublikası | Madaqaskar | Toqo |
| Fil dişi sahili | Malavi | Uqanda |
| Efiopiya | Mali | Zambiya |

**Mənbə:** https://www.imf.org/en/About/Factsheets/Sheets/2016/08/01/16/11/Debt-Relief-Under-the-Heavily-Indebted-Poor-Countries-Initiative

BVF-nun gördüyü tədbirlərdən biri də dünya ölkələri üzrə yoxsulluğun səviyyəsinin azaldılmasına yönələn addımdır. Belə ki, BVF müəyyən müddət ərzində 22 yoxsul ölkənin təxminən 20 milyard dollar borcunu silmişdir. Yoxsul ölkələrin hökumətləri aktiv dünya ticarətinə qoşulmaq məqsədilə iqtisadi vəziyyəti və həmçinin siyasi vəziyyəti daha da yaxşılaşdırmaq üçün cəhdlər etməli, xüsusi proqramlar hazırlamalıdır. Ölkə iqtisadiyyatının vəziyyətini investisiya mühitinə çevirməlidir. Yoxsul ölkələrin inkişafına həmçinin inkişaf etmiş ölkələr də kömək etməlidir. Belə ki, onlar inkişaf etməkdə olan ölkələrin ixracına mane yaradan sədləri azaltmalı, mümkün olarsa aradan qaldırmalıdırlar. (www.imf.org , 2019)

2015-ci ildə dünya iqtisadiyyatında neft qiymətlərində kəskin azalmanın baş verməsi ilə gözlənilməz problemlər yarandı. 2015-ci ildə olan bu azalma BVFna üzv olan ölkələrə əhəmiyyətli dərəcədə təsir etmişdi. Baş verən bu hadisələr BVF-nun mütəxəssislərinin analitik düşünməsini və nəticədə doğru-düzgün düşünərək dolğun təklif vermələrinin əhəmiyyətini artırdı.

Qeyd edilənləri ümumiləşdirərək demək olar ki, BVF dünya ölkələrinin iqtisadiyyatının canlanmasında və sürətli inkişafında önəmli rol oynamaqdadır. BVF dünya ölkələrinə 209 milyard 500 min ABŞ dollarından çox maliyyə yardımı edib. Fondun yardımında əsas diqqət isə valyuta mübadilə səviyyəsi, maliyyə və fiskal siyasət və risklərin təhlil edilərək öyrənilməsinə yönəldilib.

Qeyd edilən sahələrdə BVF müxtəlif tədqiqatlar aparmaqla yanaşı, həm də üzv ölkələrə maliyyə və valyuta məsələlərində məruzələr verir. Başqa cür desək, BVF üzv ölkələrin maliyyə problemlərini həll edir və bu və digər sahələrdə mütəxəssis hazırlanmasında onlara kömək edir.

### 2.3. Beynəlxalq Valyuta Fonduna tənqidi yanaşmalar

Bu bölümə qədər olan hissələrdə BVF-nun fəaliyyətinin dünya ölkələrinin iqtisadiyyatında nə qədər önəmli rol aldığı barədə danışıdıq. Bu bölümdə isə əsasən BVF-na tənqidi yanaşmalardan bəhs ediləcək.

İndi isə keçək tənqidi yanaşmalara. Belə ki, indiyə qədər BVF-a qarşı çox tənqidlər olub. Bu tənqidləri 3 başlıq altında cəmləşdirmək olar:

Birinci qrupa BVF-nun kredit şərtləri ilə əlaqəli tənqidləri qeyd etmək olar. Çünki, bildiyimiz qədərilə BVF-dan kredit almaq istəyən ölkələr fondun irəli sürdüyü şərtlərin hamısını yerinə yetirməlidirlər. Həmin ölkələr tərəfindən də bu şərtlərin onların iqtisadiyyatlarına müdaxilə olunduğunu hesab etdiklərindən bu məslələr ciddi mübahisə mövzusu olub.

İkinci qrupa isə BVF tərəfindən irəli sürülən eyni formalı proqramlardır. Belə ki, tənqidçilərin fikirlərinə görə fond ölkələrin oxşar problemlərin əsas gətirib eyni formatlı təklif proqramlarını həmin ölkələrə təqdim edir. Problemlər oxşar olsa da yerli şərtlər hər bir ölkədə fərqli olur. Yerli şərtlər nəzərə alınmadan həyata keçirilən proqramların isə nəticəsi də ürəkaçan olmur. Bu tip proqramların aid olduğu ölkələr sırasına Latın Amerikası ölkələri və qardaş ölkə olan Türkiyəni misal gətirmək olar.

Üçüncü qrupa isə BVF-nun özünün pul sistemini göstərmək olar. Belə ki, bildiyimiz kimi, BVF-nun bu günkü məqsədlərindən biri beynəlxalq pul sisteminin stabilliyini qorumaqdır. Burdan da belə nəticəyə gəlinir ki, Fond beynəlxalq pul sisteminin davamlı inkişafını nəzarətdə saxlamalıdır. Buna görə də hər hansı bir böhran baş verdikdə həmin an BVF ilk tənqid olunanlardan biri olur.

Dünya üzrə bəzi iqtisadçılar da var ki, onlar istəyirlər ki, BVF-nun tənzimləyici proqramları ciddi şəkildə məhdudlaşdırılsın. Belə olan halda isə böhran yarandığı vaxt fondun tənzimləyici proqramları ən son müraciət edilənlər

siyahısında olsun. Onlar belə təklif edirlər ki, böhran yarananda fondun proqramlarına müraciət etməkdənsə böhranın qarşısını almaq üçün ilk əvvəl özləri müəyyən tədbirlər görərək nəyəsə nail olsunlar.

BVF-a qarşı olan tənqidçilərdən biri də Joseph Stiglitzdir. Stiglitz nobel mükafatı laureatıdır. Stiqlitz tənqidlərini özünün kitabı olan "Qloballaşma və onun doğurduğu narazılıqlar" adlı kitabında bildirmişdir. Müəllif kitabda Vaşinqton konsensusunu tənqid etmişdir. Bu konsensus isə əsasən liberallaşma, özəlləşdirmə və maliyyə intizamı adlanan 3 maddəni özündə birləşdirir. BVF-nun bu 3 sahədəki təcrübələri Stiglitz tərəfindən tənqid obyektinə çevrilmişdi. Müəllif qeyd edir ki, BVF maliyyə yardımı etmək yolu ilə dövlətləri öz istədiyi siyasət yürütməyə bir növ məcbur edir.

Stiqlitzin tənqidləri arasında Şərqi Asiya böhranı zamanı BVF-nun yürütdüyü siyasət də yer almaqdadır. Şərqi Asiya böhranının başlanması Tailand bahtının 1997-ci ildə iflasa uğraması ilə bağlı oldu. Belə ki, Tailand milli valyutası dollar qarşısında təqribən 25 faiz ucuzlaşması nəticəsində valyuta spekulyasiyası yayılaraq Malayziyaya, Koreyaya, Filippinə zərbə vurdu. Bu proses getdikcə regionda yerləşən banklara, fond birjalarına da təhlükə yaradırdı. Stiqlitz qeyd edir ki, həmin vaxt BVF-nun ortaya qoyduğu siyasət vəziyyəti daha da çətinləşdirirdi. Belə hesab olunur ki, maliyyə və kapital bazarı müəyyən cəhətdən artıq liberallaşdırılmışdı və bu liberallaşma böhranın ciddi səbəbi kimi göstərilirdi.

Böhrandan əvvəl regionun inkişafı haqqında müsbət fikirlər var idi hətta regionu şərq möcüzəsi də adlandırırdılar. Böhran başlayandan sonra səbəb olaraq BVF region ölkələrinin səriştəsizliyini göstərirdi. Fondun mütəxəssislərinin fikrinə görə Asiya ölkələri üzrə institutların fəaliyyətinin yetərsizliyini bildirir, region ölkələrinin hökumətlərinin korrupsiyalaşması baş vermişdi. Qeyd edilən səbəblərdən dolayı kütləvi islahatlara ehtiyac hiss edilirdi. Stiqlitz BVF-nun bu fikirlərini birmənalı şəkildə qəbul etməyirdi. Əvəzində deyirdi ki, əgər regional institutlar zəif fəaliyyət göstərir və fəaliyyətlərində uğursuzluqlara düçar olurdusa necə olur ki Asiya bu qədər inkişaf etmiş və hətta şərqin möcüzəsi adını da qazanmışdı? (Stiqlis C.E (2004) "Qloballaşma və onun doğurduğu narazılıqlar" Bakı, s. 102)

Dünyada baş verən böhranların oxşar cəhətləri olduğu kimi, BVF-nun da bu böhranlara cavab verən oxşar siyasətləri mövcud idi. Üzv ölkələrinin valyuta kurslarının stabilliyinin tənzimlənməsi məqsədilə BVF iri həcmdə vəsaitlər ayırırdı. Fond hesab edirdi ki, etibarın bərpa olunması üçün bazarların dövlətin kifayət qədər maliyyə ehtiyatlarının olmasına inanması lazımdır. Lakin ayrılan vəsaitlər heç də bu istiqamətdə deyil, başqa istiqamətə meyl etdi. Qeyd olunan vəsaitlər əsasən dövlətlərin xarici borclarını, yəni Qərb banklarından əldə olunan borcları geri qaytarmaq imkanı yaratmışdı. Burdan belə nəticəyə gəlmək olar ki, bu vəsaitlər həmin dövlətlərə yardım etməsi ilə yanaşı, dolayısı ilə qərb banklarına da yardım demək idi. Yaranmış vəziyyətdən isə varlılar da istifadə etməyə başladı. Onlar üçün əllərində olan pulu dollara çevirərək dövlətdən çıxarmaq üçün fürsət yaranmışdı. Bu tip hadisənin ən bariz nümunəsi Meksikada baş vermişdi və bu proses nəticədə böhran yaranmasına səbəb olmuşdu. (Stiqlis C.E (2004) "Qloballaşma və onun doğurduğu narazılıqlar" Bakı, s. 109)

BVF böhranların qarşısını almaq məqsədilə müəyyən şərtlərin yer aldığı proqramların hazırlanmasını bildirirdi. Qeyd edilən şərtlərə yüksək faiz dərəcələrinin təmin edilməsi, dövlət xərclərinin azaldılması verginin artırılması, struktur islahatları və s. aid edilirdi. BVF qeyd edirdi ki, bu şərtlər toplusunun daxil olduğu proqramları hazırlamaq onlara milyardlarla dollara başa gəlirdi. Bu proqramların məqsədi ölkə iqtisadiyyatlarının inkişafını sürətləndirməkdən ibarət idi. Proqramdakı şərtlərin geniş olması həmin yardımı alan dövlətlərin iqtisadi müstəqilliyinin bir hissəsini güzəştə getməsi demək idi. Bu hallara və adətən demokratiyanın təhlükə altında qalması BVFna qarşı olan tənqidlərin əsas səbəbləri kimi göstərilirdi. Tənqidçilər isə qeyd edir ki, bu şərtlərin əslində mövcud olan problemlərə aidiyyatı yox idi.

Nəticədə isə proqramlar uğursuz oldu. BVFnu isə gərəkli islahatları qaydasında həyata keçirə bilmədiklərinə görə tənqid edirdilər. Daha əvvəl qeyd etdiyimiz kimi BVF-nun həyata keçirdiyi proqramların nəticəsi olaraq ölkədə investisiya mühiti yaxşılaşmalı və ölkəyə kapital axını olmalı idi. Lakin bu dəfə

fərqli olaraq kapitalın ölkəyə daxil olması deyil, ölkədən kütləvi olaraq xaricə axını gücləndi.

Stiqlitz özünün tənqidi yanaşmasında bildirmişdi ki, böhranın baş verməsini şərtləndirən şəraitin yaranması məhz BVF-nun maliyyə bazarlarının liberallaşdırılması istiqamətində yürütdüyü siyasət ilə bağlıdır. Misal olaraq Latın Amerikasını götürülür. Latın Amerikasında böhran vaxtı BVF böhranın qarşısının alınması üçün hökumət xərclərini tənzimləməklə məşğul idi hansı ki bu xərclər büdcə kəsirlərinə gətirib çıxara bilərdi. BVF-nun bu istiqamətdəki dəyərləndirilməsinin əhəmiyyəti iki səbəbə əsaslanırdı.

Birinci səbəb ondan ibarət idi ki, Latın Amerikasında inflyasiya səviyyəsinin yüksək olması səbəbindən burada həddən artıq olan tələbin azaldılması ilə bağlı göstəriş var idi. Şərqi Asiya məsələsi yönündən baxdıqda isə əslində əsas məsələ artıq olan tələb yox, tələbin qeyri bərabərliyi olmuşdur. Qeyd edilən məsələ ilə bağlı tələbin azaldılmasının vəziyyəti ağırlaşdırılması ilə bağlı fikirlər var idi.

İkinci səbəb isə şirkətlərin əgər borcları az olarsa o zaman yuxarı faiz dərəcələri tətbiq etmək mümkündür. Yox əgər borclar çoxdursa bu zaman yuxarı faiz dərəcələrinin tətbiqi iqtisadi vəziyyəti daha da ağırlaşdıra bilərdi.

Daha öncə də qeyd etdiyimiz kimi Şərqi Asiyadakı böhran bir ölkədən digərinə keçirdi. Tənqidçilər qeyd edir ki, BVF-nun bu dövrdəki səhvi o olmuşdur ki, fond müxtəlif ölkələrdəki siyasətlər arasındakı münasibətləri anlaya bilməmişdi. Belə ki, əgər hər hansı ölkədə məhdudlaşdırıcı siyasət həyata keçirilirsə, bu siyasət həmin ölkənin iqtisadiyyatını zəiflətməklə yanaşı həm də qonşu ölkənin də iqtisadiyyatına təsir edir. BVF da ona görə tənqid edilirdi ki, bu fond həmin məhdudlaşdırıcı siyasəti dəstəkləyirdi. Bununla da həmin yoluxmanı bir dövlətdən digərinə keçirirdi. Bir dövlətin iqtisadiyyatının zəifləməsi qonşu ölkənin də iqtisadiyyatına təsir etməsini onunla izah etmək olar ki, iqitisadiyyatı zəifləyən ölkə idxalı azaldır bununla da qarşı dövlətin ixracı azalır və dolayısı ilə iqtisadiyyata mənfi təsir edir. BVF həm də valyuta devalvasiyasına qarşı çıxırdı. Yardımların göstərilməsinin də bir səbəbi valyuta məzənnəsi səviyyəsinin aşağı düşməsini önləmək idi.

Tənqidçilər belə fikir söyləyirlər ki, BVF-nun etdiyi səhvlərdən biri də yüksək faiz dərəcələrinin tətbiqini dövlətlərdə təşviq etmək idi. Belə ki, BVF Şərqi Asiyaya daxil olan zaman dövlətləri məcbur etdi ki, faiz dərcələrini yüksək səviyyəyə qaldırsınlar. Əslində ölkədə faiz dərəcələrinin artması ölkəyə xarici investisiyaların artmasına gətirib çıxaracaqdı. Bu da məntiqli görünür. Lakin buna Cənubi Koreya misalı ilə baxdıqda bəzi məsələlər ortaya çıxır. Cənubi Koreyada böhranın başlama səbəbi kimi xarici bankların ölkəyə verdiyi maliyyə yardımının geri qaytarılması müddətinin uzadılmaması göstərilir. Böyük məbləğli kreditləri olan şirkətlər üçün isə faiz dərəclərinin artması həssas məslələrdən biri idi. Çünki belə olan halda iri həcmli kreditor borcu olan şirkətlər faiz dərəcələrinin kəskin artması nəticəsində asanlıqla müflisləşə bilərdilər. BVF bu məsələni bildiyi halda faiz dərəcələrini yüksətməyə davam edirdi. Nəticədə yuxarı faiz dərəcələrinin tətbiqi nəticəsində müflisləşən şirkətlər sayı çoxaldı. Bu da öz növbəsində borc verən banklara təsir etdi ki, onlar da borcu geri ala bilmədilər. Maliyyə sektorunda yaranmış bu böhran öz növbəsində izafi tələbin yaratdığı böhranı daha da kəskinləşdirdi. Buradan da belə nəticəyə gəlmək olar ki, yuxarı faiz dərəcələrinin tətbiqi heç də xarici kapital axınını artırmadı əksinə yaranmış böhranla əlaqədar ölkə daxili investisiyalar da xaricə aparıldı.

Ümumiyyətlə götürdükdə BVF-na olan tənqidləri əsasən 3 qrupa bölüşdürürlər:

1) Pul siyasəti ilə əlaqəli olan:

- Mərkəzi bankların borc vermək üzrə son qurum olmasının ləğv edilməsi ilə əlaqədar
- Faiz dərəcələrinin artırılması iqtisadiyyata mənfi təsir etdi.

2) Maliyyə siyasəti ilə əlaqəli

3) Struktur islahatlar ilə əlaqəli:

- Böhran vaxtı banklardan tələb olunurdu ki, tez bir zamanda kapitallarını bərpa etsinlər
- Nəticədə böhran zamanı bəzi banklar fəaliyyətlərini dayandırdılar (Səlimov V. "Asiya böhranı və BVF" adlı məqalə, s. 59)

BVF Şərqi Asiya ölkələrini böhrandan çıxarmaq üçün zəif bankların bağlanmağını məsləhət görmüşdü. Bu da onunla əlaqəli idi ki, nəzarət altında olmayan zəif banklar riskli kreditlər verirdilər. Bu kreditlərin ödəmə qabiliyyətinin az olmasından dolayı, ödəmə vaxtı çatdıqda bank bu pulları geri ala bilmir. Nəticədə isə dövlət bu bankların bağlanmaması üçün normadan daha çox pul vəsaiti ayırmağa məcbur qalırdı. Bu da dolayısı ilə yığım böhranını ortaya çıxardan məsələ idi.

Yuxarıda da qeyd etdiyimiz kimi BVF bankların ya bağlanmasını ya da sürətli şəkildə kapital ehtiyatlarını bərpa etməyə təkid edirdi. Bu təkid isə öz növbəsində böhranı daha da sürətləndirərək genişləndirirdi. Ümumi nəzəri baxımdan bu məntiqə uyğun idi ki, banklar kapital adekvatlğı barədə olan standartları tez bir zamanda ödəsin. Lakin bank əgər çətin vəziyyətdədirsə bu təkidin çox pis nəticələri ola bilər. Kapitalı borca nisbətən daha çox artırmaq üçün banklar ya gərək kapitalı artırsın, ya da borcları azaltsın. Təbii ki, böhran vaxtı kapital artırmaq olduqca çətin məsələdir. Bu halda seçim qalır borcları azaltmaq. Bu zaman isə başqa məsələ  ortaya çıxır. Banklar borcların qaytarılmaısını tələb etdikdə bu dəfə də müəssisələr pis vəziyyətə düşür. Burada da müəssisələr müflisləşir. Dolayısı ilə bu da bankların fəaliyyətinə təsir edərək onların kapital ehtiyyatlarını artırmağa mane olur.

Beləliklə zəif banklar bağlandı. Fəaliyyətlərini qismən də olsa bərpa edə bilən bankların isə borcları getdikcə artmağa başladı. Bildiyimiz kimi kredit olmazsa müəssisələr hər hansı bir istehsalla məşğul ola bilməz və iqtisadiyyatın dirçəlməsi də sual altında qala bilər.

Tənqidçilər qeyd edir ki, BVF-nun maliyyə bazarlarının fəaliyyəti haqqında hər hansısa məlumatsızlığı bu tip nəticələrə gətirib çıxardırdı. Cənubi Koreya isə BVF-nun vaxtıkən BVF-nun tələbini rədd etmişdi. Bu ölkə iki aparıcı banklarını bağlamaq əvəzində onları yenidən maliyyələşdirdi. Bunun nəticəsində də digər ölkələrə nisbətən Cənubi Koreyanın iqtisadi vəziyyəti daha tez inkişaf etdi.

Tənqidçilərin BVF-nun Şərqi Asiya ölkələri üçün tətbiq etdiyi proqramın yanlış olduğunu bir də başqa aspektdən sübuta yetirmək istəyirlər. Belə ki, onların dediyinə görə Malayziya və Çin bu proqramları qəbul etmədi. Belə ki, Malayziya BVF-nun həyata keçirdiyi proqramları qəbul etməkdən boyun qaçırtmışdır. Bunun

səbəbi də onda idi ki, Malayziya hökuməti BVF-a etibar etmirdi. BVF Malayziyada bankların zəif olması ilə əlaqədar ora öz əməkdaşlarını göndərdi. Malayziya hökuməti öz proqramları vasitəsilə bankların zəif olmasını aradan qaldırmağa cəhd edirdi. Belə ki, Malayziya hökumətinin tənzimləmə proqramları bankları xarici valyuta sistemində baş verə biləcək qeyri-bərabərliyinin yaranmasının qarşısını alaraq belə bir təhlükədən qorudu.

İndi isə keçək Çinə. Böhran zamanı digər ölkələrdə gəlirlərin azalması baş verdiyi halda, Çində 8 faiz artmışdı. Çin iqtisadçılarının öyrəndiyi standart təlimatlar nəticəsində bu uğur qazanılmışdı. Çin həmçinin ehtiyaclarının qısamüddətli olmasını və inkişaf məqsədlərinin uzunmüddətli olmasını birləşdirmək şansından istifadə etdi. Çin hökuməti anlayırdı ki, böhran islahatlar üçün hazırlanmış böhranı həyata keçirməyə mane ola bilərdi və həmçinin bunun baş verməməsi üçün maliyyə və korporativ sektorun bərpası prosesini gücləndirmək lazımdır. Bütün bu prosesləri diqqətlə analiz edən Çin BVF-nun mövqeyinə tam əks olaraq mövqe tutmuşdu. Tənqidçilər qeyd edir ki, Çin və Malayziyanın BVF-nun əksinə mövqe tutması məhz bu dövlətlərdə böhranın qısamüddətli olması ilə seçildi.

BVF-nun məsləhətlərinə əməl etməyən digər ölkə isə Koreya idi. BVF öz standartlarında bankları bağlamağı tövsiyə etmişdi. Koreya isə bunun əksinə gedərək bankları bağlamaqdan imtina etdi. Koreya həmçinin valyuta sisteminə də müdaxilə edərək onun səviyyəsinin artmasına icazə verməyərək aşağı səviyyədə qorumağı bacardı. Valyuta məzənnəsinin aşağı salınması onunla əlaqədar idi ki, Koreya hökuməti idxalı məhdudlaşdırmaq və ixracı davam etdirmək istəyirdi. Koreya BVF-nun komputer çipləri istehsalı ilə bağlı verdiyi məsləhəti rədd etdi. Nəticədə komputer çiplərinə olan tələb artdıqca iqtisadiyyat da dirçəldi. Tənqidçilərin fikrincə Koreya BVF-nun məsləhətlərinə əməl etsəydi iqtisadiyyatın dirçəlməsi prosesi daha uzun çəkə bilərdi (Stiqlis C.E (2004) “Qloballaşma və onun doğurduğu narazılıqlar” Bakı, s. 144)

Ümumiyyətlə, BVF-nun dünya iqtisadiyyatında nə qədər faydalı, önəmli yeri olubsa, vacib qərarlar veribsə də, tənqidçilərin araşdırmasına və deyimlərinə görə bəzən fondun qərarı pis nəticəyə də gətirib çıxara bilər.

# III FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ VALYUTA FONDU İLƏ ƏLAQƏLƏRİ VƏ ÖLKƏ İQTİSADİYYATINDA ROLU

## 3.1. Azərbaycanın xarici iqtisadi əlaqələri

AR Çar Rusiyası tərəfindən zəbt ediləndən sonra rus hökuməti Azərbaycanın milli sərvətlərindən istifadə etməyə başlamışdı. Məhz bu səbəbdən region üzrə yeni müxtəlif layihələr hazırlandı ki, bunda da məqsəd Respublikada olan xammaldan istifadə edilsin. Bunların arasında isə neft istehsalı ciddi əhəmiyyət kəsb edirdi. Neftdən yanacaq kimi istifadə edilməsi bu sərvətə olan tələbi getdikcə artırırdı. Məhz bu xammal ilə zəngin olan torpaq sahələrinə xüsusi qulluq olunurdu, torpaqlar genişləndirilir və neft quyularının qazılması işləri getdikcə artırdı.

Getdikcə Azərbaycan və Rusiya əlaqələri genişlənirdi. Azərbaycan iqtisadiyyatında neft sənayesi Rusiyanın ehtiyaclarını ödəməyə xidmət edirdi. Neft resursundan Respublikada maşınqayırma və metallurgiya zavodlarının işində istifadə edilirdi.

1918-ci ilin 28 mayında Azərbaycan ilk müstəqilliyini elan etdi. Müstəqillik əldə etməklə bərabər artıq Azərbaycanda siyasi institutlar, dövlət qurumları formalaşmağa başladı. Təəssüf ki, bu müstəqillik cəmi 1 il 11 ay davam etdi. 1920-ci ilin iyul ayında sovet ordusu Azərbaycana daxil oldu və sovet hakimiyyəti quruldu.

Sovet hakimiyyətinin qurulmasından başlayaraq təxminən 70 il müddətində Azərbaycan sərbəst şəkildə dünya ölkələri ilə ticarət əlaqələri qura bilmədi. Belə demək mümkünsə, ölkə dünya iqtisadiyyatından bir növ uzaqlaşmışdı. Buna səbəb sovet hakimiyyətində bazar iqtisadiyyatı deyil, planlı mərkəzləşdirilmiş iqtisadiyyat hökm sürürdü. AR Sovet ölkələri arasında önəmli yer tuturdu. Buna səbəb ölkəmizin uyğun coğrafi mövqedə yerləşməsi və xammal resursları ilə zəngin olması idi. Azərbaycanda hələ 1900-cü illərin əvvəllərində 90-dan artıq neft quyusu var idi. Respublikamızda fəaliyyət göstərən neft emalı sənayesi tez bir zamanda inkişaf edir və bu sahədə olan tələbatı ödəyirdi. Onu da qeyd etmək lazımdır ki, neft məhsullarının su hövzəsi üzərindən ixracı məhz Xəzər dənizi vasitəsilə reallaşırdı.

Təbii ki, həmin dövrdə Azərbaycan tək neft emalı sənayesi ilə deyil, digər sahələrdə də inkişaf edirdi. Buna misal olaraq pambıq, tütün fabriklərini də göstərmək olar. Pambıqçılığın inkişafı nəticəsində Respublikamızda pambıq təmizləmə şirkətləri yaranırdı. Bu da yüngül sənayenin sürətli inkişafına öz töfhəsini verirdi.

İyirminci əsrin sonlarında dünyada baş verən proseslər, xüsusən SSRİ-nin dağılması, soyuq müharibənin bitməsi, dünyada siyasi və iqtisadi mühitin dəyişməsinə gətirib çıxardı. SSRİ-nin dağılması ilə ondan ayrılan dövlətlər beynəlxalq sistemə qoşulmağa başladı. Bu dövrdə AR da SSRİ-dən ayrılaraq öz müstəqilliyinə qovuşdu.

18 oktyabr 1991 tarixdə AR müstəqillik əldə etdi. Müstəqillikdən sonra ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə mühüm iqtisadi əlaqələr yaranmağa başladı. Artıq 1991-ci ildə AR 80-dən çox ölkə ilə iqtisadi əlaqələr yaratmağa başladı. Daha öncə də qeyd etdiyimiz kimi sovet hakimiyyətində bazar iqtisadiyyatı deyil, mərkəzi planlama sistemi var idi. Müstəqillik əldə etdikdən sonra isə beynəlxalq əmək bölgüsünə qoşulmaq lazım idi. İqtisadiyyatın bu vəziyyətdə olması isə buna hələ imkan vermirdi. Yəni, beynəlxalq əmək bölgüsünün tələbatını ödəyə bilmirdi. Bu vəziyyətdən çıxmaq üçün isə Heydər Əliyevin rəhbərliyi ilə lazım olan normativ hüquqi aktlar hazırlandı, xarici ölkələr ilə mühüm əlaqələr yarandı. Bunların yaranmasında əsas məqsəd isə həmin mürəkkəb problemləri aradan qaldırmaq və ölkənin iqtisadiyyatını tez bir zamanda inkişaf etdirmək idi.

Respublikada baş tutan bu islahatlar xarici iqtisadi əlaqələrə də təsir göstərirdi. Xarici iqtisadi əlaqələrə təsir göstərən islahatlara misal olaraq ARnda əcnəbilərin hüquqlarının müdafiəsi və onlara dövlət təminatının verilməsini göstərmək olar.

Respublikamız dünya iqtisadiyyatında baş verən proseslərə SSRİ-nin tərkibində olduğu üçün sərbəst şəkildə qoşula bilmirdi. Sovet hakimiyyətinin təsirindən çıxıb müstəqillik əldə edəndən sonra isə ölkəmiz xarici iqtisadi əlaqələrin bərpa edilməsində və inkişafı istiqamətində lazımı tədbirlər hazırlandı.

Müstəqillik əldə etdikdən sonra AR-nı dünya dövlətləri tanımağa başladı. Bu prosesin baş verməsi isə özlüyündə ölkəmizin dünya ölkələri ilə əlaqə sisteminə inteqrasiya olunmağında böyük rol oynadı. Azərbaycanın dünya dövlətləri ilə əlaqələrinin genişlənməsi istiqamətində atılan ən böyük addımlardan biri də 1994-cü ilin sentyabr ayının 24-də "Əsrin müqaviləsi" –nin imzalanması oldu.

Xarici iqtisadi əlaqələrin inkişafı istiqamətində atılan növbəti addımlardan biri də "Böyük İpək Yolu"-nun yenidən qurulması istiqamətində 1998-ci ildə keçirilmiş beynəlxalq konfrans olmuşdur.

Aşağıdakı cədvəldə ARnın 1991-2013-cü illər ərzində idxal və ixrac əməliyyatları nəticəsində yaranmış ticarət balansı öz əksini tapıb.

**Cədvəl 7: ARnın 1991-2013-cü illər üzrə idxal ixrac əməliyyatlarının dinamikası**

| İllər | Dövriyyə (mln ABŞ dolları) | İdxal | İxrac | Saldo |
|---|---|---|---|---|
| 1991 | 4002.2 | 1881.3 | 2120.9 | 2397.6 |
| 1995 | 1304.8 | 667.6 | 637.2 | -30.4 |
| 2000 | 2917.3 | 1172.1 | 1745.2 | 573.1 |
| 2003 | 5216.6 | 2626.2 | 2590.4 | -35.8 |
| 2005 | 8558.4 | 4211.2 | 4347.2 | 136.0 |
| 2009 | 20826.9 | 6127.0 | 14699.9 | 8572.9 |
| 2010 | 27960.8 | 6600.0 | 21300.0 | 14700.0 |
| 2011 | 36326.9 | 9756.0 | 33365.3 | 16814.9 |
| 2012 | 43813.2 | 9652.9 | 34160.3 | 24507.4 |
| 2013 | 43551.2 | 10712.5 | 32838.7 | 22126.2 |

**Mənbə**: A.M.Məhərrəmov, F.Ə.Qənbərov, M.G.Güləliyev "Azərbaycanın xarici iqtisadi əlaqələri: problemlər və perspektivlər" , s. 23

Cədvəl 7-dən belə görürük ki, idxal-ixrac əməliyyatlarının nəticəsi olaraq ticarət balansı 2005-ci ildən etibarən hər il keçdikcə genişlənir. Müqayisə etsək görərik ki, 2013-cü ildə 1991-ci ilə nisbətən ixracın həcmindəki artım idxalın həcmindəki artımdan daha çox olmuşdur. Nəticədə müsbət ticarət balansı yaranmışdır. Onu qeyd etmək yerinə düşər ki, 2013-cü ildə ticarət əməliyyatlarının böyük həcmi məhz Amerika Birləşmiş Ştatları, Türkiyə, Rusiya, Gürcüstan, Çin, Almaniya, Fransa kimi ölkələrin payına düşmüşdür.

Bildiyimiz kimi investisiyalar xarici iqtisadi əlaqələrin inkişafında önəmli rol almaqdadır. Aşağıdakı qrafikdə 2012-2017-ci illər ərzində Azərbaycan iqtisadiyyatına qoyulmuş investisiyanın həcmini görmək olar.

**Qrafik 4: Azərbaycan iqtisadiyyatında 2012-2017-ci illər üzrə neft və qeyri-neft sektoruna yatırılan investisiyaların həcmi (mln ABŞ dolları)**




**Mənbə:** bakuresearchinstitute.org

Qrafik 4-dən göründüyü kimi ölkəmizə edilən birbaşa xarici investisiyalar əsasən neft sektoruna istiqamətlənir. 2012-2017-ci illər ərzində ölkəyə yatırılan investisiyaların müqayisəli təhlili onu göstərir ki, 2014-cü ildə investisyaların həcmi digər illərdəkinə nisbətən daha çox olub.

Xarici iqtisadi əlaqələrin inkişafı istiqamətində atılan addımlar, görülən işlər və bu proseslərin nəticələri bir daha onu göstərir ki, ölkə iqtisadiyyatının inkişafı zəmnində vacib irəliləyişlər baş verir.

Araşdırmalar göstərir ki, 2017-ci ildə ARnın xarici ticarət dövriyyəsi 24.3 milyard ABŞ dolları səviyyəsində olmuşdur. Bu rəqəmdə ixrac əməliyyatlarının həcmi 15.5 milyard ABŞ dolları təşkil etsə də, idxal əməliyyatlarının həcmi 8.8 milyard ABŞ dolları dəyərində olmuşdur. Xarici ticarət balansı isə 6.7 milyard dollar təşkil etmişdir. 2016-cı il məlumatları ilə müqayisə etdikdə deyə bilərik ki, 2017-ci ildə xarici ticarət dövriyyəsinin həcmində 12.3% artım olmuşdur. Burada ixracın 32%-i İtaliyanın, 10%-i Türkiyənin, 4.4%-i Rusiya, 4.6%-i İsrailin payına düşür, yerdə qalan hissələr isə digər ölkələrin payına düşür. İdxal əməliyyatlarının isə 20%-i Rusiyanın, 14.5%-i Türkiyənin, 9%-i Çinin, yerdə qalan hissə isə digər ölkələrin payına düşür. 2017-ci ildə qeyri-neft məhsullarının da artımı müşayiət olunmuşdur. Belə ki, qeyri neft məhsullarının ixrac əməliyyatları 25% artaraq 1.5 milyard ABŞ

dollarına çatmışdır. (A.M.Məhərrəmov, F.Ə.Qənbərov, M.G.Güləliyev "Azərbaycanın xarici iqtisadi əlaqələri: problemlər və perspektivlər" , s. 23)

**Qrafik 5: 2017-ci ildə ixracın ölkələr üzrə payı**




**Mənbə:** bakuresearchinstitute.org

Aşağıdakı cədvəldə isə ARnın 2017-ci ildə ölkə qrupları ilə xarici ticarət əlaqələri göstərilib.

**Cədvəl 8: 2017-ci il üzrə ARnın ölkə qrupları ilə xarici ticarəti (min ABŞ dolları ilə)**

| Ölkə qrupları | İxrac | İdxal | Dövriyyə |
|---|---|---|---|
| Aİ | 7 452 308.20 | 1 942 930.40 | 9 395 238.60 |
| MDB | 1 050 074.50 | 2 396 235.90 | 3 446 310.40 |
| GUAM | 821 956.60 | 540 815.10 | 1 362 771.70 |
| İslam Əməkdaşlıq | 2 262 474.60 | 1 920 419.00 | 4 182 893.60 |
| CƏMİ | 13 811 624.40 | 8 782 007.60 | 22 593 632.00 |

**Mənbə:** **www.economy.gov.az**

Cədvəl 8-dən də göründüyü kimi 2017-ci ildə ARnın ən böyük ticarət tərəfdaşı Avropa İttifaqına daxil olan ölkələrdir. Bu ölkələr ümumi ticarət dövriyyəsinin 42%-ni təşkil edir. MDB ölkələri ilə olan ticarət dövriyyəsinin həcmi 15%, GUAM ölkələri ilə ticarət həcmi 8%, İslam Əməkdaşlıq Təşkilatı ölkələri ilə olan xarici ticarət dövriyyəsi isə 19% təşkil edir.

## 3.2. Azərbaycan Respublikasının Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığı

Əvvəlki bölmədə də qeyd etdiyimiz kimi Sovet hakimiyyəti dağıldıqdan sonra SSRİ-nin tərkibinə daxil olan ölkələr müstəqillik əldə etdilər. Bundan sonra isə həmin ölkələrdə bazar iqtisadiyyatına keçid üçün işlər görülməyə başladı. AR digər

sovet ölkələrindən fərqli olaraq daha ağır böhran içində idi. Lakin Respublikamızın zəngin təbii sərvətlərlə bol olması və bu sərvətlərdən effektli istifadə nəticəsində ölkəmiz bu böhrandan rahat şəkildə çıxa bildi.

Bazar iqtisadiyyatına keçidi reallaşdırmaq məqsədilə lazım olan normativ-hüquqi aktlar hazırlandı, irimiqyaslı islahatlar və geniş proqramlar həyata keçirildi. Respublikanın müxtəlif sahələrində özəlləşdirmə işlərinə başlanıldı. Bunun nəticəsində də istər istehsal sahəsi olsun, istər xidmət sahəsi olsun daha da inkişaf etməyə başladı. Qeyd edilən sahələrin inkişaf etməsi paralel olaraq ölkəmizdə əmək qabiliyyətli əhalinin məşğulluğuna da təsir etdi və məşğulluq səviyyəsi yüksəlməyə başladı.

Azərbaycan iqtisadiyyatının sürətlə inkişafına təkan verən amillərdən biri də məhz beynəlxalq təşkilatlara üzv olmaq və onlarla qarşılıqlı olaraq müxtəlif proqramlar və islahatlar keçirmək oldu. Cədvəl 9-da ARnın əməkdaşlıq etdiyi beynəlxalq maliyyə və kredit təşkilatları göstərilib.

**Cədvəl 9: ARnın əməkdaşlıq etdiyi beynəlxalq maliyyə və kredit təşkilatları**

| Beynəlxalq | Regional |
|---|---|
| BVF | Avropa Yenidənqurma və İnkişaf Bankı |
| Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı | İslam İnkişaf Bankı |
| Çoxtərəfli İnvestisiya Zəmanətləri Agentliyi | Asiya İnkişaf Bankı |
| Beynəlxalq İnkişaf Assosiasiyası | Qara Dəniz Ticarət və İnkişaf Bankı |
| Beynəlxalq Maliyyə Korporasiyası | |

**Mənbə**: S.İ.Əliyev, A.N.Eminov, E.B.Süleymanov, F.Q.Ələsgərova. "Beynəlxalq Maliyyə təşkilatları və Azərbaycan"

AR müstəqilliyin ilk illərində dünya ölkələri ilə sıx əməkdaşlığa başlamışdı. Bu əməkdaşlığın ölkəmizə verdiyi töfhələr isə insanların həyat səviyyələrinin yaxşılaşması, həyatın müxtəlif səviyyələrində inkişaf olmuşdur.

1991-ci ildə müstəqillik əldə etdikdən sonra ölkə daxilində baş verən böhranı aradan qaldırmaq üçün müxtəlif addımlar atıldı. Lakin böhranın qarşısını təbii ki, yalnız başına almaq mümkün deyildi. Bu səbəbdən ölkəmiz beynəlxalq təşkilatlara üzv olmağa və onlarla qarşılıqlı əməkdaşlıq yaratmağa başladı. Bu təşkilatlardan ən mühümü isə BVF idi. Azərbaycan BVF-na 1992-ci ilin 18 sentyabrında üzv oldu. BVF-nun əhəmiyyətli olmağını isə əvvəlki fəsillərdə yer alan məlumatlara görə əminliklə demək olar. Belə ki, Fondun köməyindən daha çox İnkişaf Etməkdə olan

Ölkələr istifadə edirlər. Bu səbəbdən BVF yeni müstəqil olan Azərbaycan dövləti üçün çox əhəmiyyətli beynəlxalq təşkilat idi.

Azərbaycan artıq 27 ildir ki, BVF-nun üzvüdür. Azərbaycanın BVF-dakı kvotası hal-hazırda 391.7 milyon SDR-dir. Ölkəmizi BVFnda maliyyə naziri təmsil edir, onun əvəzedicisi olaraq da mərkəzi bankın sədri çıxış edir.

BVF Respublikamızda iqtisadi vəziyyəti yaxşılaşdırmaq üçün bir sıra tədbirlər proqramını həyata keçirtməyi tələb etmişdir:

1. İqtisadiyyatda dövlət payının azaldılması və özəl sektorun inkişafı – Bu proqram tələbinin əsas səbəbi bazar iqtisadiyyatına keçidin asanlaşdırılması idi. Azərbaycan dövləti bu proqramı 1995-ci illərdə tətbiq etməyə başladı.
2. Büdcə kəsirinin aradan qaldırılması – Bu tələb tək Azərbaycan üçün deyil, böhran vəziyyəti yaşayan ölkələr üçün də tətbiq edilirdi. Bunun tətbiqi ölkəmizdə büdcə xərclərinin azaldılması və daxilolma mənbələrinin araşdırılaraq tapılması yolu ilə həyata keçirməyi düşünülürdü.
3. Qiymətlərin azadlığı
4. Sərt kredit siyasəti – Bu siyasətin həyata keçirilməsi 1994-cü ildə başlanıldı və bu iş milli banka tapşırıldı.
5. Dövlət sifarişlərinin ləğvi
6. Valyuta kursunun təyin edilməsi
7. Struktur dəyişikliklərin həyata keçirilməsi (S.İ.Əliyev, A.N.Eminov, E.B.Süleymanov, F.Q.Ələsgərova. "Beynəlxalq Maliyyə təşkilatları və Azərbaycan" Bakı, s. 169)

BVF AR-da 1995-ci ildən aktiv fəaliyyətə başlayıb. Fondun ölkəmizə maliyyə yardımının göstərməsinin nəticəsində investiya üçün gözəl imkan yarandı. Bundan əlavə olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin bağlanması BVF-nu inandırdı ki, borcları vaxtında qaytara biləcək.

AR ilə BVF arasındakı əlaqələr Struktur İslahatları Proqramı məzmununda qurulub. Müstəqilliyin yenidən bərpası müddətində Beynəlxalq Valyuta Fodunun struktur islahatları maliyyə yardımı zəmnində aparılırdı. Bu da tədiyə balansının

sabitləşdirilməsi və stabil iqtisadi vəziyyətin bərqərar olması istiqamətində olduqca vacib idi.

BVF AR-na aşağıda adları qeyd edilən proqramlar yolu ilə maliyyə yardımı edirdi:

- Struktur quruculuğunun artırılması
- Yoxsulluğun azaldılması
- Sistem dəyişikliyi
- Əlavə maliyyələşdirmə proqramları (S.İ.Əliyev, A.N.Eminov, E.B.Süleymanov, F.Q.Ələsgərova. "Beynəlxalq Maliyyə təşkilatları və Azərbaycan" Bakı, s. 112)

Fond ilə Azərbaycan arasında bağlanmış sazişin dördüncü maddəsinə əsasən BVF ölkəmizə maliyyə yardımı ilə yanaşı həm də texniki yardım, monetar idarəetmə sahəsində mövcud potensialın artırılması, dövlət xərcləmələrinə nəzarət, gömrük siyasəti, vergi siyasətinin idarəedilməsi, mərkəzi bankçılıq və s. sahələrdə yardım göstərmişdir.

BVF-nun Azərbaycana ilk kredit ayırması 1995-ci ildə həyata keçmişdir. Sistemli Transformasiyanın Maliyyələşdirilməsi adlanan bu mexanizmin məbləği 58.5 milyon SDR olmuşdur və bu məbləğ 2 dəfəyə verilib: İlk dəfə 1995-ci ilin aprel ayında (46 mln USD), ikincisi isə həmin ilin noyabr ayında (43 mln USD) Bu kredit mexanizminin verilməsində məqsəd isə makroiqtisadi islahatların həyata keçirilməsi olmuşdur.

AR-da 1995-ci ilə mövcud olan inflyasiya səviyyəsinin aşağı salınması üçün hökumət bir sıra addımlar atmalı idi. Belə ki, bu prosesdə BVF-na maliyyə yardımı almaq üçün müraciət olundu. Fond tərəfindən ölkəmizə "Standby" mexanizmi vasitəsilə maliyyə yardımı ayrıldı. Məbləğin həcmi 90 milyon ABŞ dolları təşkil edirdi.

BVF tərəfindən verilən tövsiyyələr, makroiqtisadi nəzarət və fondun verdiyi maliyyə yardımı ilə ölkəmiz gələcək iqtisadi proqramın qurulması prosesində önəmli rol almışdır. Buna sübut olaraq söyləmək olar ki, 1995-ci ildə inflyasiya səviyyəsinin uzun müddət sabit qalması, büdcə kəsirinin aradan qaldırılması məhz fondun verdiyi tövsiyələr və maliyyə yardımı əsasında baş vermişdir.

Fond tərəfindən verilən kreditlər Mərkəzi Bankın ehtiyat hesablarında saxlanılır və ehtiyac olduğu təqdirdə həmin məqsədlərdən dolayı istifadə edilməyə başlanılır.

Ölkədə baş verən inflyasiya səviyyəsinin aşağı salınması, valyuta siyasətinin inkişafı, likvidliyin bank əməliyyatlarında artırılması BVF-nun gördüyü işlərə aiddir. Bu məqsədlə BVF mütəxəssislərdən ibarət nümayəndə heyyətini tez-tez ölkənin Mərkəzi Bankı ilə görüşlərə göndərir.

Daha öncəki fəsillərdə də qeyd etdiyimiz kimi BVF-nun fəaliyyətlərindən biri də çirkli pulların yuyulması və terrorçuluğa qarşı mübarizə sisteminin tətbiq edilməsi yolu ilə dünya ölkələrinə yardım göstərməkdir. Belə proqramı BVF AR-da da tətbiq edib. Bu məqsədlə BVF öz mütəxəssis heyətindən ibarət qrupunu 2009-cu il avqust və sentyabr aylarında Azərbaycana göndərmişdi. Bu səfərin məqsədi Azərbaycanda çirkli pulların yuyulması və terrorçuluğa qarşı mübarizə istiqamətində məsləhətlər vermək idi. Bu məqsədlə Azərbaycana ikinci dəfə 2010-cu ilin iyul ayında BVF-nun ekspertləri səfər etmişdi. Bu səfərlərin nəticəsində Azərbaycan və BVF arasında PL/TMM sahəsində qarşılıqlı razılaşma əldə edilmişdi. AR-nın BVF-dakı maliyyə vəziyyəti cədvəl 10-da əks etdirilmişdir:

**Cədvəl 10: Azərbaycanın BVF-da maliyyə mövqeyi**

| **Ümumi resurslar hesabı** | **Milyon SDR ilə** | **Kvota %** |
|---|---|---|
| Kvota | 391.70 | 100 |
| -Fondun kapital qoyuluşları | 333.90 | 85.24 |
| -Ehtiyat mövqeyi | 57.83 | 14.76 |
| | | |
| **SDR Departamenti** | **Milyon SDR ilə** | **Bölgü %** |
| Kapital qoyuluşları | 153.58 | 100 |
| | | |
| **Verilmiş borc** | Yoxdur | |

**Mənbə:** www.imf.org

Cədvəl 10-da da göründüyü kimi ARnın BVFnda kvotası 391.70 milyon SDR təşkil edir. Bunun 85.24%-i, yəni 333.90 milyon SDR-i kapital qoyuluşuna aid, 14.76%-i, yəni 57.83 milyon SDR isə ehtiyat mövqeyinə aiddir.

Cədvəl 10-dan göründüyü kimi Azərbaycanın BVFna vaxtı keçmiş borcu yoxdur. ARna BVF tərəfindən ən son maliyyə ayırmaları cədvəl 11-də əks etdirilib.

**Cədvəl 11: Azərbaycana BVF tərəfindən ən son maliyyə ayırmaları**

| Növ | Təsdiq tarixi | Son tarix | Ayrılmış məbləğ (milyon SDR) | Verilmiş məbləğ (milyon SDR) |
|---|---|---|---|---|
| ECF* | 06.07.2001 | 04.07.2005 | 67.58 | 54.71 |
| EFF | 20.12.1996 | 19.03.2000 | 58.50 | 53.24 |
| ECF* | 20.12.1996 | 19.03.2000 | 93.60 | 81.90 |

**Mənbə: www.imf.org**

***ECF- əvvəlki adı PRGF**

Azərbaycanın gələcək 5 ildə BVF-na ödəməli olan məbləğlər cədvəl 12-də əks etdirilib.

**Cədvəl 12: Azərbaycanın BVF-na ödəməli olduğu məbləğlər (milyon SDR)**

| | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| əsas məbləğ | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 |
| Faiz | 0.50 | 0.67 | 0.67 | 0.67 | 0.67 |
| Cəmi | 0.50 | 0.67 | 0.67 | 0.67 | 0.67 |

**Mənbə: www.imf.org**

AR BVF ilə əməkdaşlığı iqtisadiyyatın müxtəlif sahələri üzrə ayrı ayrılıqda davam edir. Belə ki, bu sahələrdə müxtəlif struktur rəhbərləri BVF-nun ölkə və region nümayəndələr ilə tez-tez görüşlər keçirdir. Bu görüşlər məsləhət xarakterli olur. Görüşlərin əsas mövzusu hal-hazırda var olan əlaqələrin daha da güclənməsi, gələcək perspektivləri istiqamətində olur. BVF ilə keçirilən görüşlərdə müzakirə olunan məsələlərdən "Qədim İpək Yolu"-nun bərpa olunması, bu yolda mövcud olan gömrük proseslərinin asanlaşdırılması, tranzit sistemlərinin inkişafı və s. də göstərmək olar.

Aşağıdakı qrafik 6-da BVF-nun 2015-2016-2017-ci il hesabatlarında Azərbaycan iqtisadiyyatı üçün verdiyi proqnozlar əks olunub. Qrafik 6-nı təhlil etsək belə nəticəyə gəlmək olar ki, BVF 2016-cı il dünya iqtisadi göstəricilər hesabatında AR-da iqtisadiyyatın 2015-ci ildə 3.5 %, 2016-cı ildə 3.8 %, 2017-ci ildə isə 3.7 % artması ilə bağlı proqnozunu qeyd etmişdi. İnflyasiya səviyyəsinin isə 2017-ci ildə 7.9 % olacağını qeyd etmişdi.

**Qrafik 6: BVF-nun 2016-cı il hesabatında Azərbaycan iqtisadiyyatında 2015-2016-2017-ci illər üzrə artım və inflyasiya**




**Mənbə:** BVF 2016-cı il ölkələr üzrə iqtisadi göstəricilər hesabatına əsasən müəllif tərəfindən

BVF həmçinin AR-da vergi sistemində baş verən islahatları, bu sistemin daha da təkmilləşdirilməsi istiqamətində atılan addımları, elektron xidmətlərin inkişaf etdirilməsi, nağdsız ödəmələr üçün stimulların artırılması istiqamətində atılan addımları, qeyri-neft sektorundan vergi daxilolmalarının artırılması istiqamətində görülən işləri yüksək qiymətləndirmişdir

Qeyd etmək lazımdır ki, AR-nın BVF ilə əlaqə qurması və fondun ölkəmiz üçün verdiyi maliyyə yardımları, məsləhətlər müstəqilliyin ilk illərində ölkəmizin sürətli şəkildə inkişaf etməsinə böyük töfhələr verdi.

### 3.3. Azərbaycan və BVF əməkdaşlığının inkişaf istiqamətləri

Milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyasının səviyyəsi nə qədər yüksək olarsa, daxili proseslər də bir o qədər tez formalaşır. Azərbaycan da müstəqillik elan etdikdən sonra dünya təsərrüfat sisteminə tez bir zamanda inteqrasiya olmaqdan ötrü bir sıra tədbirlərə, proqramlara başladı. Aydındır ki, yenicə müstəqil olmuş respublika üçün bu prosesin üzərindən tez bir zamanda

gəlmək çətin bir işdir. Bu yolda Azərbaycan beynəlxalq təşkilatlara üzv olmağa başladı ki, bunlardan da ən mühümü BVF idi.

AR BVF-na 1992-ci ildə üzv olmasına baxmayaraq, 1994-1995-ci illərdə fondun maliyyə və texniki yardımından daha aktiv istifadə etməyə başladı. Əvvəlki fəsillərdə də qeyd etdiyimiz kimi BVF maliyyə yardımlarını öncədən müəyyən olunmuş mexanizmlər çərçivəsində verir. İqtisadi vəziyyəti zəif olan ölkələr üçün daha xüsusi mexnizmlər mövcuddur. Lakin inkişaf səviyyəsindən asılı olmayaraq fonda üzv olan ölkələr fondun ümumi ehtiyatlarından onların kvotaları çərçivəsində istifadə edə bilərlər.

Cədvəl 13-də BVF tərəfindən AR-na ayrılmış kreditlər haqqında məlumat qeyd edilmişdir.

**Cədvəl 13: BVF tərəfindən Azərbaycana ayrılmış kreditlər**

| Kreditin adı | Valyutası | Məbləği | İmza tarixi |
|---|---|---|---|
| **STF** | SDR | 58.5 milyon | 19.04.1995 |
| **Standby** | SDR | 58.5 milyon | 17.11.1995 |
| **ESAF** | SDR | 93.6 milyon | 20.12.1996 |
| **EFF** | SDR | 58.5 milyon | 20.12.1996 |
| **SSFF** | SDR | 56.3 milyon | 26.01.1999 |

**Mənbə:** S.İ.Əliyev, A.N.Eminov, E.B.Süleymanov, F.Q.Ələsgərova. “Beynəlxalq Maliyyə təşkilatları və Azərbaycan”

Cədvəldən də göründüyü kimi BVF Azərbaycana ilk dəfə maliyyə yardımını 1995-ci ilin aprel ayında STF krediti verərək başladı. Kreditin məbləği 58.5 milyon SDR təşkil etmişdi. Kreditin verilməsində məqsəd bazar iqtisadiyyatına keçmək istiqamətində başladılan proqramların maliyyələşdirilməsindən ibarət idi. Kredit 10 il müddətinə verilmişdi.

1995-ci ildə BVF tərəfindən ölkəmizə ayrılan kreditlərdən biri də Standby krediti idi. Bu kreditin də həcmi 58.5 milyon SDR idi. Bu kreditin verilməsində məqsəd tədiyə balansında olan kəsiri aradan qaldırmaq idi. Kredit 6 il müddətinə verilmişdi.

1996-cı ildə BVF Azərbaycana ESAF krediti ayırmışdı. Kreditin məbləği 93.6 milyon SDR idi. Kreditin verilməsində məqsəd tədiyə balansında yaranmış kəsiri

aradan qaldırmaq üçün hazırlanmış iqtisadi islahatlar proqramını maliyyələşdirmək idi. Kredit 12 il müddətinə verilmişdi.

SSFF kreditləri isə BVF tərəfindən ARna 1999-cu ildə verilmişdi. Kreditin məbləği 56.3 milyon SDR, müddəti isə 5 il təşkil edirdi. Kreditin verilməsində əsas məqsəd Rusiyada baş vermiş yüksək səviyyəli inflyasiyanın Azərbaycanda yarada biləcək ani təsirlərinin qarşısını almaqdan ibarət idi.

2005-ci ildən başlayaraq AR BVF-dan kredit almır. Fond ilə əlaqələr məsləhətləşmə səviyyəsində aparılır. Azərbaycan ilə BVF arasında olan əməkdaşlığın səmərəli şəkildə baş tutmasının səbəblərindən biri də fondun verdiyi kreditlərin ölkəmiz tərəfindən vaxtında qaytarılması olmuşdur.

Respublikada sənayenin inkişaf etdirilməsi, səhmləri dövlətə məxsus olan bankların özəlləşdirilməsi, ölkədə baş vermiş su və elektrik təchizatındakı problemlərin aradan qaldırılması, neft sənayesindən daxilolmaların səmərəli şəkildə istifadə edilməsi, neft fondunun fəaliyyətində şəffaflığın önə çıxarılması BVF ilə Azərbaycanın əməkdaşlığında öndə duran məsələlərdəndir.

AR üçün prioritet məsələlərdən biri də ölkədə yoxsulluğu azaltmaq və iqtisadi inkişafa nail olmaqdır. Bu səbəbdən 2001-ci ilin 02 martında ulu öndər Heydər Əliyev "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramı" hazırlanması haqqında sərəncam imzaladı. Sərəncamın icrası üçün İqtisadi İnkişaf Nazirliyi BVF ilə əməkdaşlıq etmişdi.

BVF-nun Azərbaycanda həyata keçirdiyi proqramlardan biri də bankçılıq sahəsində idi. Belə ki, BVF MB-yə kart inkişafı mərkəzinin yaradılması, milli ödəmə sisteminin inkişafı istiqamətində proqramların hazırlanması üzrə texniki yardımlar göstərmişdi. Həmçinin banklar haqqında qanunun daha da təkmilləşdirilməsi istiqamətində məsləhətlər vermişdir. İnflyasiya səviyyəsini qorumaq məqsədilə sərt monetar siyasət həyata keçirilməlidir. Bu da öz növbəsində manata olan tələbatı artıracaqdır.

Aşağıdakı qrafik 7-də AR-da müxtəlif illər üzrə yoxsulluq səviyyələri göstərilib. Qrafik 7-dən göründüyü kimi yoxsulluq səviyyəsi illər keçdikcə aşağı düşmüşdür.

**Qrafik 7: AR-da yoxsulluq səviyyələri (%)**




**Mənbə:** www.economy.gov.az

BVF öz hesabatında Azərbaycan üzrə iqtisadi artımın inkişafını proqnozlaşdırıb. Bu proqnozu aşağıdakı qrafik 8-də rahat görmək mümkündür.

**Qrafik 8: BVF tərəfindən Azərbaycanın iqtisadi artım göstəriciləri** (BVF 2016-cı il ölkələr üzrə iqtisadi göstəricilər hesabatı)




**Mənbə:** www.economy.gov.az

Qrafik 8-dən göründüyü kimi BVF AR-da iqtisadi artımın inkişafını 2017-ci il üzrə 1.4%, 2018-ci il üzrə 2.3%, 2019-cu il üzrə 2.9% və 2020-ci ildə 2.5% olacağını proqnozlaşdırır.

2016-cı ildə BVF-nun mütəxəssislərindən ibarət qrupun AR-na növbəti səfəri baş tutmuşdur. Qrupun rəhbəri isə Məhəmməd Əl-Qorşi idi. Əl-Qorşinin başçılıq etdiyi qrup Azərbaycanın iqtisadi vəziyyətini dəyərləndirmişlər. Qrupun dəyərləndirmələrinə görə iki pilləli devalvasiyadan sonra AR-nın Mərkəzi Bankı valyuta siyasətində üzən məzənnə rejiminə keçmiş və inflyasiyanın yüksəlməsinə

qarşı bir sıra tədbirlər görərək faiz dərəcələrini tam doğru qaldırmışdır. BVF qrupunun fikrinə görə ölkənin büdcəsini stimullaşdıran amillər düzgün qiymətləndirilmişdir ki, bunlara da əmək haqqının, yaşa görə təqaüd və sosial təminat məbləğinin qaldırılması aiddir. Devalvasiyanın baş verməsi idxalı azaltsa da bu da öz növbəsində Neft fondunun resurslarına olan tələbatı azaldacaq. Bu da o deməkdir ki, vəziyyət yaxşıya doğru dəyişəcək.

Əl-Qorşinin rəhbərlik etdiyi qrup təbii ehtiyatların istifadəsi ilə də bağlı məsləhətlər vermişdir. Bildirmişdilər ki, təbii ehtiyatlar nə qədər zəngin olsa da bu rahatlıq yaratmamalı, əksinə onun qorunub saxlanılması üçün əlavə tədbirlər planı hazırlanmalı və tez bir zamanda həyata keçirilməlidir.

Son dövrlərdə bank sektorundakı problemlərə də toxunan BVF-nun mütəxəssis qrupu onu da vurğulayır ki, bank sistemindəki problemlər Azərbaycan üçün aktual problemdir. Bank sisteminə olan inamın bərqərar edilməsi və bank nəzarətinin ciddi şəkildə həyata keçirilməsi məqsədilə bir sıra addımlar atılmışdır. 2016-cı ilin 01 iyun ayına artıq 8 bankın lisenziyası alınmış, aktivlərdə qiymətləndirilməsi yekunlaşmışdır. Digər banklarda isə restrukturizasiya prosesləri aparılıb. Fondun missiya qrupu bu addımları bəyənmiş və onun tez bir zamanda həyata keçirilməsini tövsiyə etmişdir. Onların fikrincə bu proses passiv kredit problemini aradan qaldıracaq və zəif banklarda kapital artımına gətirib çıxaracaqdır. (BVF 2016-cı il ölkələr üzrə iqtisadi göstəricilər hesabatı)

Bundan başqa BVF Azərbaycanla bağlı hesabatı 2016-cı ilin sentyabr ayında açıqlayıb. Fondun məlumatlarına görə, bu illərdə inflyasiya səviyyəsi artıb, büdcədə kəsir yaranıb. İnflyasiyanı normal səviyyəyə gətirmək üçün sərt monetar siyasət yeridildi və yeni maliyyə nəzarəti agentliyi yarandı.

Fondun bəyanatında AR-nın təbii sərvətləri olan neft və qaz istehsalına da toxunulur. Belə ki, fond bildirib ki, Azərbaycan iqtisadiyyatının əsasında neft və qaz durur. Neftin qiymətinin yüksək olduğu dövrlərdə karbohidrogen ehtiyatları ixracın 90%-ni təşkil edirdi. 2016-2019-cu illərdə isə neft hasilatında azalmalar müşayiət olunur və bununla bərabər qiymətlərdə də enmə müşahidə olunur.

Fondun mütəxəssis heyətinin fikrinə görə, əsas hədəf kimi xarici mühitə uyğun makro siyasət qurmaq, monetar siyasəti və eləcə də fiskal siyasəti müasirləşdirmək, struktur islahatları gücləndirmək götürülməlidir.

Fond nəticədə neft qiymətinin ucuzlaşmasına qarşı uyğunlaşmanı alqışlayır. Tövsiyə edir ki, hökumət makroiqtisadi sabitliyi və eləcə də maliyyə sahəsində sabitliyi qorumaq üçün struktur islahatların genişləndirsin.

Tədiyyə balansının möhkəmlənməsində və müsbət balansa keçmək üçün Azərbaycan hökuməti BVF ilə birgə iqtisadi siyasət hazırlayır. Resursların istiqamətləndirilməsi də iqtisadiyyatda struktur islahatlarının aparılmasını tələb edir. Struktur islahatlar proqramı da aşağıda adları göstərilən makroiqtisadi proqramları əhatə edir:

1. Dövlət investisiya proqramının effektivliyinin artırılması, dövlət müəssisəsinin yenidən qurulması, bəzi dövlət müəssisələrinin özəlləşdirilməsi üzrə tədbirlər proqramı
2. Xarici ticarətin liberallaşdırılması və qiymət əmələ gəlməsi sahəsində islahatların aparılması
3. Gömrük və vergi sahəsində dövlət institutlarının möhkəmləndirilməsi

BVF-nun missiya qrupunun ARna növbəti səfəri 2017-ci ilin mart ayında baş tutmuşdur. Maliyyə Nazirliyinin nümayəndələri ilə keçən bu görüşdə ölkədə makroiqtisadi sabitliyin və dayanıqlı iqtisadi artımın inkişaf etdirilməsi mövzusunda müzakirələr olmuşdu. Ölkədə yerinə yetirilən iqtisadi islahatların və bank sektorunun inkişaf etdirilməsi yönündə atılan addımları yüksək qiymətləndirilməsi Fondun missiya əməkdaşları tərəfindən bildirilib.

Həmin görüşdə missiyanın rəhbəri Məhəmməd Əl-Qorşi bildirib ki, BVF gələcəkdə valyuta siyasətinin təkmilləşdirilməsi istiqamətində ARna texniki yadım göstərməyə hazırdır.

Daha öncə də qeyd etdiyimiz kimi BVF müxtəlif struktur proqramlarının həyata keçirilməsi üçün AR-da müxtəlif dövlət qurumları ilə görüşlər keçirdir. Belə görüşlərin biri də 2017-nin dekabr ayında baş tutub. Belə ki, qeyd edilən tarixdə BVF-nun rəsmi missiyası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə görüş

keçirib. Görüşün keçirilməsində məqsəd respublikamızda yerinə yetirilən təqaüd islahatlarına və əmək bazarı haqqında müzakirələr etmək olub. Görüşdə ölkəmiz tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirinin birinci müavini İdris İsayev çıxış edib. O, çıxışında bildirib ki, ölkədə aparılan islahatlar bu sistemin uzunmüddətli inkişafına əlverişli şərait yaradıb.

Nazir müavini çıxışında onu da bildirib ki, 2003-2017-ci illərdə təqaüd məbləğlərinin həcmi 10 dəfədən çox artıb. Bu artım Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin artması ilə müşayiət olunub. Belə ki, məcburi dövlət sosial sığorta haqları üzrə fondun büdcəsi 2016-cı ildə 6 faiz artıb.

Görüşdə həmçinin 2018-ci il üzrə proqnoz məbləğləri də qeyd olunub. Belə ki, göstəricilərin 5 faiz artacağı qeyd edilib.

Qeyri-rəsmi məşğulluqdan rəsmi məşğulluğa keçidin sürətlənməsi məqsədilə 2018-ci ildən işsizlik sığortasının tətbiq olunacağı BVF-nun missiyasının diqqətinə çatdırıldı.

Fondun missiyasının nümayəndələri AR-da sosial sığorta sisteminin tətbiqinin beynəlxalq təcrübəyə söykəndiyini, əmək qabiliyyətli insanların gələcəkdə yüksək təqaüd ala bilmə hüquqlarının olmasını, bu məqsədlə də sosial sığorta sistemində aparılan islahatları yüksək qiymətləndiriblər.

Daha əvvəl də qeyd etdiyimiz kimi, AR 2005-ci ildən etibarən BVF-dan kredit almır, lakin müxtəlif sahələr üzrə məsləhətlər alır. Belə məsləhət xarakterli görüşlərdən biri də 2017-ci ilə baş tutmuşdur. Görüşlərdən sonra isə BVF görülmüş işlər haqqında məlumatı öz hesabatında dərc etdirir. Fondun missiya qrupu iqtisadi artım tempini müsbət qiymətləndirmiş, 2018-ci ildə q/neft sektorunun 4% yüksəlməsini proqnoz etmişdir.

Ölkədə işsizlik sığortasının yaradılması, yaşa görə təqaüd prosedurаları üzrə islahat proqramlarının keçirilməsi kimi işlər nəticəsində sosial təminat və eləcə də əmək bazarı istiqamətində nəzərə çarpan irəliləyişlər əldə edilmişdir.

Aşağıdakı qrafik 9-da yaşa və orta aylıq pensiyaların təsviri əks olunub. Məbləğlər illər üzrə manatla göstərilmişdir.

**Qrafik 9: Orta aylıq və yaşa görə pensiyaların minimum aylıq məbləğləri**




**Mənbə:** www.cabmin.gov.az

Qrafikdən görürük ki, 2017-ci ildə orta aylıq pensiya məbləği 2008-ci ilə nisbətən təxminən 2.1 dəfə artıb, əmək pensiyalarının minimum aylıq məbləği isə 2017-ci ildə 2008-ci il ilə müqayisədə təxminən 46.67% artmışdır. Bu göstəricilər isə bir daha sübut edir ki, AR müstəqillik qazandıqdan sonra sürətlə inkişaf etmişdir.

Missiya qrupunun rəhbəri Məhəmməd əl-Qorşinin sözlərinə görə 2017-ci ildə iqtisadiyyat stabilləşib. Buna səbəb kimi fəal makroiqtisadi siyasət və neft qiymətlərinin yuxarı olmasını göstərmək olar. Xidmət və kənd təsərrüfatı sahələrində olan canlanma qeyri-neft sektorunun inkişaf etməsi üçün zəmin yaradıb. Tədiyyə balansında aranmış kəsirin örtülməsində və müsbət tədiyyə balansının yaradılmasında qeyri-neft sahəsinin inkişafı,  neft qiymələrində artım, idxalın daralması kimi önəmli amillərin rolu oldu.

Aşağıdakı qrafik 10-da Azərbaycan üzrə xidmət idxalının ümumi çəkisində ayrı-ayrı xidmət növlərinin xüsusi çəkisi əks olunmuşdur. Xidmət növlərinin xüsusi çəkisi müxtəlif illər üzrə faiz dərəcələri ilə göstərilmişdir.

Qrafik 10-da 2017-ci ilin nəticələrinə baxsaq əgər görərik ki, xidmət idxalında ən yüksək yer 33% ilə Turizm xidmətinin payına düşür. İkinci yerdə 30.8% ilə tikinti xidməti qərarlaşıbsa, üçüncü yerdə isə 13% ilə nəqliyyat xidməti yer alıb. Yerdə qalan hissə isə digər xidmətlərin payına düşür.

**Qrafik 10: Azərbaycan üzrə xidmət idxalında ayrı-ayrı xidmətlərin xüsusi çəkisi (% ilə)**




**Mənbə:**https://bakuresearchinstitute.org/az/azerbaijans-participation-opportunities-in-the-global-services-market/

AR-nın ümumi xidmət ixracında isə ayrı-ayrı xidmətlərin faizlər üzrə bölgüsü qrafik 11-də öz əksini tapmışdır.

**Qrafik 11: AR-nın ümumi xidmət ixracında ayrı-ayrı xidmətlərin faizlər üzrə bölgüsü**




**Mənbə:**https://bakuresearchinstitute.org/az/azerbaijans-participation-opportunities-in-the-global-services-market/

Qrafikdə təsvir edilənləri nəzərə alsaq burada da 2017-ci il üzrə xidmət ixracının böyük payı turizm xidmətinin üzərinə düşür. Turizm xidməti ümumi xidmət ixracının 64.3%-ni təşkil edir. Nəqliyyat xidmətinin faizi isə 20.7dir. Turizm xidmətlərinin ixracının 80%-i Gürcüstan, Rusiya, Türkiyə və İrana yönəlib.

BVF 2018-ci il üzrə iqtisadi artımı 2% səviyyəsində olacağını proqnozlaşdırır. Qaz yataqlarının aktiv halda işlənilməsindən sonra isə bu rəqəm 3.5-4% olacağı yəqin edilir.

Fondun missiya qrupunun Azərbaycana məsləhətləri bu yöndə oldu ki, ölkənin qarşısında duran ən vacib və təxirəsalınmaz məsələ bank sektorundakı axsamaların aradan qaldırılmasıdır. Bununla bağlı olaraq səlahiyyətli orqanlar banklara nəzarəti tam güclə öz üzərinə götürməli və bank sisteminin sağlamlaşdırılması üçün müvafiq proqramlar hazırlayaraq icrasına tez bir zamanda başlamalıdırlar.

**Qrafik 12: 2008-2017-ci illər üzrə neft və qaz hasilatı göstəriciləri**




**Mənbə:** www.cabmin.gov.az

Qrafikdən göründüyü kimi neft hasilatı getdikcə azalmağa başlayır. BVF-nun mütəxəssis heyətindən ibarət üzvlərinin də dediyi kimi davamlı inkişafa nail olmaq üçün təkcə neft sənayesini deyil, qeyri-neft sənayesini də inkişaf etdirmək lazımdır.

BVF-nun Azərbaycan üzrə nümayəndəsinin yeni rəhbəri Natalya Tamirisadır. Natalya Tamirisa yeni vəzifəsinə 2019-cu ilin yanvar ayından başlayıb. Vəzifəyə keçəndən sonra ARna ilk rəsmi səfərini aprel ayında etdi və mərkəzi bankın rəhbəri Elman Rüstəmovla görüşdü. Xanım görüşdə ölkədə baş verən iqtisadi artımı, makroiqtisadi sabitliyin təmin edilməsi istiqamətində görülən işləri qiymətləndirib və bundan sonra da ölkəmizə texniki yardımın göstərilməsinə hazır olduğunu bildirib.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Qlobal dünyada iqtisadi münasibətlər hələ qədim dövrlərdən başlamışdır. Əvvəllər ölkələr öz aralarında baş verən münasibətləri özləri tənzimləsələr də getdikcə bu münasibətlərin mürəkkəbliyinin artması, müharibələrin başlanması, maliyyə böhranlarının baş verməsi və digər bu kimi hadisələr beynəlxalq təşkilatların yaranmasına zəmin yaratdı. Beynəlxalq maliyyə təşkilatları arasında mühüm yeri tutan təşkilatlardan biri də BVFdur. İkinci dünya müharibəsindən sonra bir çox ölkələrin iqtisadi vəziyyətləri çətin duruma düşdü.

Araşdırmanın nəticəsindən bəlli oldu ki, BVF iqtisadi cəhətdən çətin vəziyyətə düşən ölkələrə özünün texniki yardımı, maliyyə yardımı və nəzarət funksiyaları ilə kömək edir. BVF dünya ölkələri arasında valyuta münasibətlərini tənzimləyir, ölkələrin tədiyə balansında yaranmış kəsirin aradan qaldırılması üçün müxtəlif proqramlar hazırlayır. BVF yalnız İnkişaf Etməkdə Olan Ölkələrə deyil, həmçinin yoxsul ölkələrə də maliyyə yardımı edir. Sırf bu ölkələr üçün BVF-nun "Yoxsulluğa qarşı mübarizə və iqtisadi artım" mexanizmi altında kredit layihəsi mövcuddur. Kredit şərtlərinin sadə olması kasıb ölkələr üçün şərait yaradır ki, onlar da öz iqtisadiyyatlarını inkişaf etdirə bilsinlər.

Araşdırma işində BVF-na olan tənqidlər də yer almışdır. Bu tənqidləri analiz etdikdə belə nəticəyə gəlmək olar ki, BVF öz proqramlarında heç də həmişə uğurlu olmayıb. Bu barədə araşdırma Şərqi Asiya böhranı nümunəsində yer alıb.

Araşdırma işində Azərbaycan ilə BVF arasında olan əməkdaşlıq xüsusi yer alıb. Azərbaycanın beynəlxalq təşkilatlar ilə əməkdaşlığı 1991-ci ildə müstəqillik əldə etdikdən sonra başladı. SSRİ-nin dağılmasından sonra bazar iqtisadiyyatına keçid şəraitində olan AR üçün beynəlxalq təşkilatlar ilə əməkdaşlıq son dərəcə önəm kəsb edirdi. Belə ki, mövcud vəziyyətdən çıxmaq üçün ölkədə müxtəlif proqramlar, islahatlar həyata keçirmək lazım idi. Bu yolda beynəlxalq təşkilatların rolu mühüm idi. Azərbaycan BVF-na 1992-ci ildə üzv olmasına baxmayaraq 1995-ci ildə aktiv əməkdaşlıq başlandı. AR BVF-dan müxtəlif maliyyə yardımları almışdır ki, bunlar haqqında dissertasiya işinin üçüncü fəslində geniş mılumat verilmişdir. 2005-ci ildən Azərbaycan BVF arasında əməkdaşlıq məsləhətləşmə səviyyəsində baş tutur.

Dissertasiya işində Fondun ARnın iqtisadi göstəriciləri üzrə proqnozları da yer almışdır. Fond Azərbaycanda baş tutan islahatları, inkişaf proqramlarını yüksək qiymətləndirmişdir.

Araşdırmadan sonra aşağıdakı təkliflər verilə bilər:

BVF maliyyə yardımları üzrə şərtləri daha da sadələşdirməli, şərtlərdə maliyyə yardımı etdiyi ölkənin mövcud iqtisadi vəziyyətini düzgün qiymətləndirməli və yerli iqtisadi vəziyyəti düzgün analiz etməlidir. Əks halda yanlış analizlər nəticəsində ölkənin iqtisadi vəziyyəti yaxşılaşmaq əvəzinə daha da geri gedə bilər.

Azərbaycanda qeyri-neft sektorunun inkişafı. Bu istiqamətdə Azərbaycan BVF ilə əlaqələri daha da möhkəmləndirməli, q/neft sektorunun inkişafına dair birgə islahatlar və tədbirlər planı hazırlamalıdır. Çünki, yalnız neft sektorunda inkişaf və bu sahədə investisiya mühitini formalaşdırmaq uzunmüddətli dövrdə inkişafı sürətləndirməyəcək. Bu səbəbdən q/neft sektoru üzrə ölkədə investisiya mühitinin yaradılması işlərinin sürətləndirilməsi, bu istiqamətdə BVF ilə sıx əməkdaşlıq zəmnində tədbirlər planı hazırlamaq lazımdır.

Azərbaycan BVF ilə əməkdaşlığı qiymətli kağızlar bazarının inkişafı üzrə daha da gücləndirməli, Azərbaycana potensial investorların cəlb olunması istiqamətində uğurlu iqtisadi siyasət aparmaq üçün birgə iqtisadi tədbirlər proqramı hazırlamalı və icra etməlidir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

### Azərbaycan dilində


1. Azərbaycanın statistik göstəriciləri 2015
2. Bəxtiyarlı.H (2018) “Azərbaycan beynəlxalq və regional təşkilatlarda” Gəncə, 290 səh.
3. Borodulina L. P., Kudryaşeva İ. A., Yurqa V. A.; rus dilindən tərc. Ələkbərov Ə. Ə (2008) “Beynəlxalq iqtisadi təşkilatlar” Bakı, 373 səh.
4. Ələkbərov Ə.H., Vəliyev M.Ə., Məmmədov S.M., Ramazanov M.K (2010) “Beynəlxalq İqtisadi Təşkilatlar”. Bakı, Çaşıoğlu nəşr., 384 səh.
5. Əliyev S.İ., Eminov A.N., Süleymanov E.B., Ələsgərova F.Q (2016) “Beynəlxalq Maliyyə təşkilatları və Azərbaycan” Bakı, Zərdabi nəşr., 268 səh.
6. Dadaşova R.B. (2012) “Beynəlxalq münasibətlərin müasir problemləri və BMT” Bakı, Təknur nəşr. 183 səh.
7. Hacızadə E.M. (2018) “Dünya iqtisadiyyatı və Azərbaycan” Bakı, 912 səh.
8. Həsənov Ə.Ş. (2015) “Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti” Bakı, Azərbaycan nəşr., 631 səh.
9. Xasbulatov R.İ. (2015) “Beynəlxalq iqtisadi münasibətlər” Bakı, zərdabi LTD, 807 səh
10. Kərimov C.H., Kərimova T.H (2008) “Beynəlxalq iqtisadi təşkilatlar” Bakı, Nurlan nəşr., 213 səh.
11. Kərimov C.H., Kərimova T.H (2013) “Beynəlxalq münasibətlər və xarici siyasət” Bakı, ADPU nəşr., 345 səh.
12. Kərimov C.H., Orucov A.İ., İsrafilov H.A (2012) “Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsi.Beynəlxalq iqtisadi təşkilatlar” Bakı, 388 səh.
13. Məhərrəmov A.M., Qənbərov F.Ə., Güləliyev M.G (2015) “Azərbaycanın xarici iqtisadi əlaqələri: problemlər və perspektivlər” Bakı, Avropa nəşr., 332 səh
14. Məmmədov F.,Vəliyev C., Məmmədov A., (2017) “ARnın xarici siyasətinin əsas istiqamətləri” məqalələr toplusu, Bakı, 903 səh

15. Məmmədov M., İbadov E. (2008) “Beynəlxalq İqtisadi Təşkilatlar” Bakı, 246 səh.
16. Məmmədov N.M. (2011) “Azərbaycan iqtisadiyyatı” Bakı, Azərnəşr, 519 səh.
17. Məmmədov Z.F. (2012) “Beynəlxalq Valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi” Bakı, Azərnəşr, 504 səh.
18. Orucov A.İ. (2016) “Beynəlxalq iqtisadi münasibətlər” Bakı, ADPU nəşr., 685 səh.
19. Stiqlis C.E “Qloballaşma və onun doğurduğu narazılıqlar” Bakı, 317 səh.
20. Süleymanov E.B (2015) “Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrinin inkişaf problemləri” Bakı, 183 səh.
21. Vəliyev D.Ə., Əsədov A. (2012) “Beynəlxalq iqtisadiyyat” Bakı, Avropa nəşr., 428 səh.
22. BVF-nun iqtisadi göstəricilər üzrə hesabatları 2015
23. BVF-nun iqtisadi göstəricilər üzrə hesabatları 2016

## İstifadə olunan internet resursları

1. www.imf.org
2. www.worldbank.org
3. www.maliyye.gov.az
4. www.economy.gov.az
5. www.customs.az
6. www.elibrary.az
7. www.cabmin.gov.az
8. www.azstat.org
9. www.centerforfinancialstability.org
10. www.bakuresearchinstitute.org

**Cədvəllərin siyahısı**

Cədvəl 1. Bretton Vuds konfransında nümayəndə heyyəti ilə iştirak edən ölkələr........................................................................................................ 10
Cədvəl 2. 1946-cari dövr BVF-nun direktorlarının siyahısı.......................... 14
Cədvəl 3. Beynəlxalq Valyuta Fondunda ən çox kvotaya sahib olan ölkələr....................................................................................................... 14
Cədvəl 4. BVF-nun tətbiq etdiyi kredit növləri.............................................. 20
Cədvəl 5. 2015-ci ildə yoxsulluğa qarşı maliyyə yardımı almış ölkələr........... 23
Cədvəl 6. BVF-dan yoxsulluğun azaldılması üzrə kredit alma hüququna malik ölkələr.......................................................................................... 34
Cədvəl 7. Azərbaycan Respublikasının 1991-2013-cü illər üzrə idxal ixrac əməliyyatlarının dinamikası.......................................................................... 44
Cədvəl 8. 2017-ci il üzrə Azərbaycan Respublikasının ölkə qrupları ilə xarici ticarəti................................................................................................ 46
Cədvəl 9. Azərbaycan Respublikasının əməkdaşlıq etdiyi beynəlxalq maliyyə və kredit təşkilatları....................................................................... 47
Cədvəl 10. Azərbaycanın BVF-da maliyyə mövqeyi..................................... 50
Cədvəl 11. Azərbaycana BVF tərəfindən ən son maliyyə ayırmaları.............. 51
Cədvəl 12. Azərbaycanın BVF-na ödəməli olduğu məbləğlər......................... 51
Cədvəl 13. BVF tərəfindən Azərbaycana ayrılmış kreditlər........................... 53

## Qrafiklərin siyahısı

Qrafik 1. Standby və Genişləndirilmiş kreditlərin illər üzrə müqayisəsi...21

Qrafik 2. Regionlar üzrə texniki yardım..................................................32

Qrafik 3. BVF-nun müxtəlif illərdə sahələr üzrə texniki yardım göstəriciləri..........................................................................................33

Qrafik 4. Azərbaycan iqtisadiyyatında 2012-2017-ci illər üzrə neft və qeyri-neft sektoruna yatırılan investisiyaların həcmi................................45

Qrafik 5. 2017-ci ildə ixracın ölkələr üzrə payı........................................46

Qrafik 6. BVF-nun 2016-cı il hesabatında Azərbaycan iqtisadiyyatında 2015-2016-2017-ci illər üzrə artım və inflyasiya......................................52

Qrafik 7. Azərbaycan Respublikasında yoxsulluq səviyyələri...................55

Qrafik 8. BVF tərəfindən Azərbaycanın iqtisadi artım göstəriciləri..........55

Qrafik 9. Orta aylıq və yaşa görə pensiyaların minimum aylıq məbləğləri...........................................................................................59

Qrafik 10. Azərbaycan üzrə xidmət idxalında ayrı-ayrı xidmətlərin xüsusi çəkisi.....................................................................................................60

Qrafik 11. Azərbaycan Respublikasının ümumi xidmət ixracında ayrı-ayrı xidmətlərin faizlər üzrə bölgüsü...............................................................60

Qrafik 12. 2008-2017-ci illər üzrə neft və qaz hasilatı göstəriciləri............61